

Milli azadlıqdan şirin nemət yoxdur!

# Bir ayda ikinci zəng...

## Azərbaycanın mövqeyi beynəlxalq aləm üçün xüsusi əhəmiyyətə malikdir





Bax səh. 3

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
30 aprel 2024-cü il, çərşənbə axşamı
№ 074 (6660)
Qiymәti 60 qəpik

# Petersberqdən dünyaya....

## 15-ci İqlim Dialoqunun sülh anonsları...




Bax səh. 2

# Heç bir layihə təxirə salınmır!

Bax səh. 4

## Kəlbəcər - “yaşıl investisiyalar” üçün cəlbedici zona



Bax səh. 4

## QDİƏT PM-nin komitə iclasında...

Azərbaycan üzv olduğu beynəlxalq təşkilatlar çərçivəsində fəal siyasət həyata keçirir. Bu baxımdan, ölkəmiz Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisində də (QDİƏT PM) fəal təmsil olunur. Qeyd edək ki, 27-28 aprel tarixlərində Türkiyənin Zonquldaq şəhərində QDİƏT PM-nin İqtisadi siyasət və inkişaf komitəsinin 62-ci iclası keçirilib. İclasda “QDİƏT-ə üzv dövlətlər arasında enerji resurslarının ticarəti sahəsində əməkdaşlıq” mövzusunda məruzə müzakirəyə çıxarılıb.

Tədbirdə Azərbaycanı...

Bax səh. 5

## Azərbaycan Almaniyadan Avropa missiyasını bəyan etdi



Bax səh. 3

## İrəvanın xilası üçün fürsətlər...

Prezident İlham Əliyevin ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda keçirilən beynəlxalq forumda diqqət çəkdiyi çox mühüm məqamlardan biri də Ermənistanın nəqliyyat bağlantısı və qaz asılılığının aradan qaldırılmasında Azərbaycanın sahib olduğu mövcud infrastrukturlara qoşulmaqla həlli məsələsi idi. Cənab Prezident İrəvanın bölgəyə və dünyaya açılımında ən optimal və sərfəli marşrutlar kimi Azərbaycandan keçən qovşaqlara qoşulmasını göstərdi və Ermənistana faktiki olaraq şans və fürsətləri qaçırmamağı tövsiyə etdi.

**Ermənistan üçün bu fürsətlər...**

Bax səh. 5

## 25 nəfərin adına olan gün!

Bu gün tariximizin ən faciəvi günlərindən biridir. 2009-cu il aprelin 30-da Azərbaycan Dövlət Neft Akademiyası (ADNA) özünün qanlı tarixini yaşadı. Bu tarix ölən və yaralananların adı ilə yadda qaldı və onların adı ilə də anılacaq. 25 nəfərin adına olan bir gün bu gündür. Həmin qanlı gündən artıq 15 il ötür...

Tədris binasına silahlı hücum zamanı universitetin ikinci korpusuna daxil olan terrorçu Fərda Qədirovun birinci mərtəbədən altıncı mərtəbəyədək qarşısına çıxanlara “Makarov” tipli tapançadan atəş açması nəticəsində müəllim və tələbələr amansızcasına qətlə yetiriliblər. Terror aktı nəticəsində 12 nəfər həlak olub...

Bax səh. 8

## Xalqına xor baxan...

2020-ci ildən başlayaraq ərazi bütövlüyümüzün təmini istiqamətində həyata keçirilən proses mühüm uğurları ilə seçilib. 44 günlük Vətən müharibəsində qazanılan qələbə nəticəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad edilib. Ardından isə 2023-cü ilin sentyabrında reallaşan lokal antiterror tədbirləri nəticəsində suverenliyimiz bərpa olunub. 2024-cü ildən isə bölgədə yeni siyasi reallıqlar yaranıb - Ermənistanın aprel ayında 4 kəndin Azərbaycana qaytarılması ilə bağlı razılaşmaya imza atması ölkəmizin böyük uğuru kimi xarakterizə olunur.

Təbii ki, bu yeni reallıqların müəllifi olan Azərbaycan dövlətinin apardığı siyasi kurs həm daxili, həm də xarici arenada ölkəmizin nüfuzunun artmasını şərtləndirib. Təsadüfi...

Bax səh. 6

## Ermənistanda hərbi çevriliş ola bilərmi?

Azərbaycanın Qazax rayonunun 4 kəndinin geri qaytarılması ilə bağlı əldə edilən razılıqdan sonra Ermənistandakı revanşist qüvvələr hakimiyyətə qarşı etirazlar təşkil edir. Revanşistlər bu razılaşmanı həzm edə bilmir və Paşinyan hakimiyyətini “qorxaqlıqda” və “satqınlıqda” ittiham edirlər. Etiraz aksiyaları tərəflər arazında razılaşmanın əldə edildiyini gündən başlayıb. Belə ki, aprelin 19-da gecə saatlarında Tavuşda bir qrup yerli sakin Bağanis-Kirants...

Bax səh. 6

## Qara pullar, məkrli məqsədlər...



Bax səh. 7

## Avropanın İslamofobiya ənənəsi




Bax səh. 6

# Azərbaycan Çin üçün çox vacib tərəfdaşdır

## Prezident: 1994-cü ildə Ümummilli Liderin Çinə ilk rəsmi səfəri əlaqələrimizin təməlini qoyub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanmini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan-Çin siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayaraq ikitərəfli münasibətlərdə son vaxtlar böyük canlanmanın baş verdiyini qeyd etdi. Nəqliyyat sahəsində çox fəal birgə işlərin aparıldığını deyən Prezident İlham Əliyev bu baxımdan Transxəzər nəqliyyat dəhlizinin Orta Dəhlizin bir hissəsi olduğunu vurğuladı. Dövlətimizin başçısı sərmayə qoyuluşu nöqteyi-nəzərindən yaxşı irəliləyişin olduğunu dedi. Belə ki, Çin şirkətləri Azərbaycana daha böyük həcmdə sərmayə qoyur. Dövlətimizin başçısı, eyni zamanda, COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan-Çin məsləhətləşmələrinin aparıldığını vurğuladı. Prezident İlham Əliyev humanitar sahədə də gündəliyin kifayət qədər geniş olduğunu bildirdi, Yan Vanminin ölkəmizə səfərinin əməkdaşlığımızın genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən qonaq, ilk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Yan Vanmin Ulu Öndər Heydər Əliyevin və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük inkişaf yolu keçdiyini, ölkədə siyasi sabitliyin bərqərar olunduğunu, iqtisadi yüksəlişin əldə edildiyini, əhalinin rifah halının yüksəldiyini və respublikamızın beynəlxalq aləmdə layiqli yerini tutduğunu vurğuladı. O qeyd etdi ki, bütün bunlar Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində mümkün olub.

Prezident seçkilərində qalib gəlməsi münasibətilə bundan əvvəl təbrik məktubu göndərdiyini məmnunluqla xatırlayan qonaq İlham Əliyevin yenidən prezident seçilməsini Azərbaycan xalqının ona olan etimadının nəticəsi və gələcəyə inamının təzahürü kimi dəyərləndirdi.

Diplomatik münasibətlərimizin qurulmasından ötən dövr ərzində əlaqələrimizin sabit şəkildə inkişaf etdiyini deyən Yan Vanmin ikitərəfli münasibətlərimizin möhkəmlənməsində dövlətimizin başçısının Çinə səfərlərinin, Si Cinpinlə görüşlərinin və iki ölkə rəhbəri arasında çox gözəl şəxsi münasibətlərin rolunu xüsusi qeyd etdi.

Azərbaycanın Çin üçün çox vacib tərəfdaş olduğunu vurğulayan qonaq ölkəmizlə əməkdaşlığa böyük önəm verdiklərini bildirdi. Qeyd etdi ki, Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olub və bu baxımdan o, Transxəzər dəhlizinin bu təşəbbüsün reallaşmasına, ümumilikdə Azərbaycanın bütün nəqliyyat qovşağının inkişafına töhfə verəcəyinə əminliyini bildirdi.

Yan Vanmin ölkəsinin Azərbaycanın suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə göstərilən hörməti hər zaman dəstəkləyəcəyini vurğuladı, ölkələrimiz arasında qarşılıqlı etimadın daimi olacağına əminliyini bildirdi.

COP29-un təşkilində də Çinin Azərbaycana dəstəyini qeyd edən qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə bu tədbirin uğur qazanacağına inamını ifadə etdi.

Ulu Öndərin ölkələrimiz arasında münasibətlərin inkişafında roluna bir daha toxunan qonaq dedi: "Biz Çin-Azərbaycan münasibətləri haqqında danışarkən Sizin atanız Heydər Əliyevin töhfələrini unuda bilmərik.





### İlham Əliyev Heydər Əliyev Fondunun dəvəti ilə ölkəmizdə səfərdə olan Yan Vanmini qəbul edib

Çin xalqı çox yaxşı xatırlayır: Heydər Əliyev Prezident seçildikdən çox qısa müddət sonra - 1994-cü ildə Çinə səfər etdi və Çinin ovaxtkı rəhbərliyi ilə birlikdə xalqlarımız arasında əlaqələrin möhkəm təməlini qoydu. Heydər Əliyev o zaman xüsusilə Çin kəndinə gedərək sadə insanlarla görüşdü. Bu, Çin xalqının yaddaşında əbədi qalacaq. Siz bu gün atanızın siyasətini davam etdirərək Çinə altı dəfə səfər etmisiniz. Çin xalqı Sizə böyük hörmətlə yanaşır".

Qonaq Heydər Əliyev Fondu ilə uğurlu əməkdaşlıq həyata keçirdiklərini vurğulayaraq 2023-cü ildə Pekin şəhərində Ulu Öndərin 100 illik yubileyinin böyük təntənə ilə qeyd edildiyini xatırladı. Azərbaycana Heydər Əliyev Fondunun dəvəti ilə səfər etdiyini deyən Yan Vanmin Fondun Çinin olduqca inandığı və sıx əməkdaşlıq etdiyi bir qurum olduğunu vurğuladı. O, ötən illər ərzində Heydər Əliyev Fondu ilə bir çox birgə layihələr, xüsusilə gənclər arasında əlaqələrin genişləndirilməsi sahəsində layihələr həyata keçirdiklərini bildirdi. Yan Vanmin Fondla əməkdaşlığın daha da möhkəmlənəcəyinə və əlaqə dairəsinin genişlənəcəyinə əminliyini ifadə etdi. O, eyni zamanda, humanitar, turizm, gənclər sahələrinin, həmçinin regionlararası əməkdaşlığın inkişafı işinə də töhfə verməyə hazır olduqlarını bildirdi.

Qonaq Şanxay Əməkdaşlıq Təşkilatında əlaqələrə toxunaraq Azərbaycanın bu təşkilatda dialoq tərəfdaşı olmasının önəmini qeyd etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Çin Xalq Respublikasının Sədri ilə dəfələrlə keçirdikləri görüşlərin ikitərəfli münasibətlərin inkişafına güclü təkan verdiyini vurğuladı. Si Cinpinlə son dəfə keçirdiyi görüşü də məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu görüş zamanı bir çox önəmli məsələlərin müzakirə edildiyini və əməkdaşlığın perspektivlərinin təsdiq olunduğunu bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan-Çin münasibətlərinin inkişafına, parlaq gələcəyinə çox inanırdı və buna nail olmaq üçün böyük səylər göstərirdi. Azərbaycan Prezidenti qeyd etdi ki, 1994-cü ildə Ümummilli Liderin Çinə ilk rəsmi səfəri əlaqələrimizin təməlini qoyub. Öz növbəsində Ulu Öndərin siyasətini bütün sahələrdə davam etdirən bir şəxs kimi Azərbaycan-Çin əlaqələrinin inkişafına xüsusi diqqət yetirdiyini deyən dövlətimizin başçısı vurğuladı ki, birgə səylər nəticəsində müəyyən olunmuş möhkəm əməkdaşlıq çərçivəsində siyasi, iqtisadi və digər sahələrdə əlaqələrimiz bundan sonra da uğurla inkişaf edəcək.

Prezident İlham Əliyev Yan Vanminin rəhbərlik etdiyi assosiasiya ilə Heydər Əliyev Fondu arasında həyata keçirilən sıx əməkdaşlığın əlaqələrimizin inkişafına böyük töhfə verdiyini bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Si Cinpinin təşəbbüsü olan "Bir kəmər, bir yol" layihəsi ölkəmiz tərəfindən tam dəstəklənir və biz Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturunu yaradaraq qonşu ölkələrlə də təmaslar əsnasında bu layihənin həyata keçirilməsi istiqamətində səylərimizi əsirgəmirik.

# Ölkələrimiz arasında ikitərəfli münasibətlər inkişaf edir

## Prezident İlham Əliyev Malayziyanın Parlament Senatının prezidentini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Malayziyanın Parlament Senatının prezidenti Datuk Mutanq Taqalı qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin müsbət istiqamətdə inkişaf etdiyini bildirərək iqtisadi sahədə də əlaqələrimizin fəallaşacağına ümidvar olduğunu vurğuladı.

Prezident İlham Əliyev Malayziyanın beynəlxalq aləmdə Azərbaycana göstərdiyi dəstəyə toxunaraq həm torpaqlarımızın işğalı zamanı, həm də tarixi nailiyyətimiz olan ərazilərimizin işğaldan azad olunmasından, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpasından sonra Malayziyanın ölkəmizə daim dəstək göstərməsini yüksək qiymətləndirdi. Azərbaycan Prezidenti torpaqlarımızın ermənilər tərəfindən işğalı dövründə həmin ərazilərimizdə məhv edilmiş dini-tarixi abidələrimiz barədə məlumat verdi.

Datuk Mutanq Taqalın ölkəmizə səfərinin münasibətlərimizin genişlənməsi, o cümlədən parlamentlərarası əməkdaşlığın inkişafı baxımından önəmini qeyd edən dövlətimizin başçısı bu səfərin əlaqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.

Datuk Mutanq Taqal, ilk növbədə, Malayziyanın Kralı Əlahəzrət Sultan İbrahimin salamlarını və yenidən prezident seçilməsi münasibətilə bir daha təbriklərini dövlətimizin başçısına çatdırdı.





Prezident İlham Əliyev salamlara və təbriklərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Malayziyanın Kralına çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə ölkələrimizin bu hərəkatın gücləndirilməsi istiqamətində fəal birgə əməkdaşlıq həyata keçirdikləri, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatında da Azərbaycan ilə Malayziyanın yaxından qarşılıqlı fəaliyyət göstərdikləri məmnunluqla qeyd olundu.

Ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, Azərbaycan ilə Malayziya arasında mövcud olan güclü siyasi əlaqələrin investisiya, ticarət sahələrində və biznes dairələri arasında əməkdaşlığın fəallaşması üçün yaxşı imkan yaratdığı bildirildi.

Görüşdə COP29 çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu.

# Petersberqdən dünyaya....

## 15-ci İqlim Dialoqunun sülh anonsları...

**Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması ilə bağlı davam edən danışıqlar prosesinin müsbət nəticə vəd etməsi yeni siyasi situasiya formalaşdıracaq. Belə ki, regionda yaranacaq sabit durum yeni iqtisadi münasibətlər sisteminin əsasını qoyacaq, yeni siyasi yanaşmaları özündə əks etdirəcək. Bunun üçün isə ən mühüm şərt ilkin mərhələdə Ermənistanın konstruktiv mövqe sərgiləməsi, bölgənin yeni inkişaf tempi əldə etməsi üçün özünün əsassız iddialarından əl çəkməsidir.**

### İqlim Dialoqunun Yüksək Səviyyəli Seqmentinin müzakirə predmetləri...







Məsələnin mahiyyəti Azərbaycanın son 3 illik fəaliyyət trayektoriyasına əsaslanır. O baxımdan ki, məhz Azərbaycanın yürütdüyü uğurlu, əməkdaşlığı hədəfləyən və təhlükəsizlik arxitekturasının möhkəmlənməsinə töhfələr verən siyasi kurs Şərq-Qərb siyasi yaxınlaşması üçün zəmin yarada bilər. Çünki Cənubi Qafqazın ümumi inkişaf tempinin daha da sürətlənməsi, əməkdaşlıq platformalarının genişləndirilməsi ayrı-ayrı dövlətlər və bir sıra təşkilatlar daxilində fəal əməkdaşlıq edən ölkələrin siyasi dialoqunu da aktuallaşdıracaq - Cənubi Qafqazın təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsi yönündə fəaliyyət birmənalı şəkildə yeni dövr üçün mühüm perspektivlər formalaşdırır. Burada aparıcı ünsür rolunda əməkdaşlıq sahələrinin şaxələndirilməsi və bölgədə yeni qarşılıqlı etimad mühitinin formalaşdırılması kimi zəruri məsələlər dayanır ki, bunlar da kompleks şəkildə Cənubi Qafqazın bütöv (istisnasız) inkişafının təmin olunması üçün faktor sayılır. Siyasi yaxınlaşmaların perspektiv nəticələri isə daha geniş anlamda əməklaşlıq deməkdir.

Almaniyanın paytaxtında baş tutmuş "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmenti və bu əsnada keçirilən görüşlər, verilən bəyanatların əksəriyyəti yeni əməkdaşlıqları, sülhü, yaşıl dünyanı və ən əsası iqlim dialoqunu əhatə edib. Şərq-Qərb transxəttinin Cənubi Qafqaz ərazisində əldə olunacaq sabitlik isə yuxarıda qeyd edilən ən vacib predmetlərin geniş anlamda təşviqinə yol açacaq. Bunun üçün isə sülh ən vacib şərt kimi ortaya çıxır...

### Sülh sazişinin imzalanmasına doğru əlavə addımlar...

"15-ci Petersberq İqlim Dialoqu" çərçivəsində keçirilən görüşlərin, səsləndirilən fikirlərin əsas mahiyyəti isə sülhün əldə edilməsi üçün münbit şəraitin yaradılması ilə xarakterizə olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltsla birgə mətbuat konfransında bildirib ki, regional təhlükəsizliyə gəldikdə, Azərbaycan ilə Ermənistan arasında gedən sülh danışıqlarını biz yüksək qiymətləndiririk: "Cənab Kansler, Sizin dəvətinizlə Azərbaycan və Ermənistan xarici işlər nazirləri bu yaxınlarda Almaniyada görüşmüşlər. Almaniyanın xarici işlər naziri xanım Berbok da öz dəstəyini göstərmişdir. Növbəti görüş Qazaxıstanda keçiriləcək və beləliklə, biz sülh sazişinin imzalanmasına doğru əlavə addımlar atırıq".

Xatırladaq ki, bu il fevralın 28-29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında Almaniyanın paytaxtı Berlin şəhərində danışıqlar aparılmışdı. Nazirlər və onların heyətləri arasında "Sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında ikitərəfli Saziş" layihəsinin müddəaları üzrə mövqelər müzakirə edilmişdi. Bəzi əsas məsələlər üzrə əlavə işin davam etdirilməsinə ehtiyac olduğu vurğulanmışdı. Bununla bağlı yayılan məlumatda bildirilirdi ki, nazirlər Almaniyanın xarici işlər naziri Annalena Berbok ilə də görüşüblər.

Beləliklə, Almatı görüşü öncəsi ilin əvvəlində Berlində müzakirə olunan məsələlər yenidən aktuallığını qorumaqdadır. Bəlli olduğu kimi, sülhün əldə olunması üçün yaranan imkanlardan istifadə etmək, bununla da, Cənubi Qafqaza əbədi sülh gətirmək ən prioritet məsələdir. Qazaxıstanda baş tutacaq görüş bu məsələdə real tənzimləmə vasitəsinə çevrilə bilər.

### Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilib

Bütün müzakirələrdə isə bir fakt xüsusi olaraq qırmızı xəttlə keçir - 2020-ci ildə baş vemiş Vətən müharibəsində qazanılan qələbə istər regional, istərsə də qlobal miqyasda mühüm nəticələrə yol açıb. 30 ilə yaxın davam edən işğal faktını aradan qaldıran, torpaqlarını azad edən Azərbaycan regionda yeni geosiyasi reallıqlar formalaşdırıb. Həm siyasi, həm də hərbi sferadakı üstünlüklərini prosesə uğurla transformasiya edən Azərbaycan bölgədə tənzimləyici rolu üstlənib. Ötən ilin sentyabrında baş tutmuş antiterror tədbirləri isə suverenliyimizin bərpası ilə nəticələnib. Beləliklə, bölgədə ədaləti bərpa etmiş ölkəmiz yeni mərhələdə davamlı sülhün əldə olunması üçün gücünü səfərbər edib.

Prezident İlham Əliyev aprelin 26-da Berlində düzənlənmiş mətbuat konfransında deyib ki, Azərbaycan 2020-ci ildə öz suveren ərazisinin böyük hissəsini işğaldan azad etmişdir. Keçən ilin sentyabr ayında isə suverenliyini tam bərpa etmişdir. Bu gün Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilib: "Təbii ki, bu, tarixi nailiyyətdir və onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmaq fikrində deyildi. Biz beynəlxalq hüququn norma və prinsiplərini əsas tutaraq, BMT Nizamnaməsinin 51-ci maddəsinə söykənərək öz ərazi bütövlüyümüzü hərbi-siyasi yollarla təmin etdik. Bu gün isə artıq Azərbaycanla Ermənistan arasında gedən proses nəticəsində sərhədlərin delimitasiyası və hətta demarkasiyası prosesi də başlamışdır. 1990-cı və 1992-ci illərdə işğal edilmiş 4 Azərbaycan kəndi bizə qaytarılır".

Qeyd olunduğu kimi, danışıqlar prosesinin hazırki mərhələsi bir sıra müsbət məqamlarla yadda qalır - xüsusilə, ötən ilin sonundan etibarən iki dövlətin müvafiq dövlət strukturları arasında müəyyən razılaşmaların əldə edilməsi, birgə açıqlamaların yayılması və kəndlərin azad olunması kimi faktlar Qazaxıstan görüşünün müsbət nəticə verəcəyinə inamı artırır. Almaniya paytaxtında keçirilən yüksəksəviyyəli tədbirdə Azərbaycan həqiqətlərinin bir daha bəyan edilməsi isə ölkəmizin regional mövqeyini daha da gücləndirir.

### Sülhə nail olmaq üçün çox yaxşı fürsətlər var

Bəli, vurğulandığı kimi sülhün əldə olunacağına inam böyükdür. Artıq bir neçə ildir ki, Azərbaycan bu istiqamətdə qətiyyətli iş aparır. Əsas hədəflər və prioritetlər isə bəllidir - Cənubi Qafqaz Avroasiya materikinin coğrafi mərkəzi olmaqla yanaşı, həm də siyasi-iqtisadi mərkəzinə çevrilməlidir. Mövcud potensialı daha da genişləndirmək uğrunda mübarizə aparan Azərbaycan bölgədə bütün siyasi-iqtisadi, ticari və təhlükəsizlik maraqlarını uzlaşdırır. Şərq-Qərb, Şimal-Cənub xəttlərinin qovşağı kimi xarakterizə olunan Cənubi Qafqaz özünün iqtisadi üstünlüklərini təqdim edir. Təbii ki, dünyanın aparıcı dövlətləri, gücləri bu əməkdaşlıq platformalarında səmimi və qarşılıqlı maraqların qorunması çərçivəsində yer almaq niyyətindədir - Azərbaycanın da əsas məram və ideyası bundan ibarətdir. Biz sülh fürsətini əməkdaşlıq perspektivinə transformasiya etməklə dünyanın yeni - sabit və təhlükəsiz iqtisadi xəritəsini təqdim edirik. Bunun üçün gücümüz, aydın mövqeyimiz və səmimi niyyətimiz var. Prezident İlham Əliyev Almaniya paytaxtında baş tutan mətbuat konransında bildirib ki, sülhə nail olmaq üçün çox yaxşı fürsətlər var. Bütün bu işdə bizə kömək etmək istəyən ölkələrlə əməkdaşlıq etməyə hazırıq: "Ümid edirik ki, çox vaxt keçmədən bu istiqamətdə də müsbət addımlar atılacaq. Biz Almaniyanın bu sahədəki dəstəyini xüsusilə qiymətləndiririk və buna görə Sizə minnətdarıq".

### Almaniya dəstəkləməyə hazırdır...

Almaniya dövlətinin rəsmiləri də verdikləri açıqlamada ölkələrinin məsələ ilə bağlı mövqeyinə aydınlıq gətirirlər - onlar sülhün əldə edilməsində maraqlı olduqlarını bildirirlər. Kansler Olaf Şolts keçirilən birgə mətbuat konfransında vurğulayıb ki, Almaniya məsələnin uzunmüddətli və davamlı həllinin tapılmasında dəstəkləməyə hazırdır, əgər siz hər ikiniz bunu istəyirsinizsə: "Mən hər iki tərəfi həvəsləndirmək istərdim ki, lazımi kompromislər üçün istək və cəsarət göstərəsiniz. Mən düşünürəm ki, 2024-cü il regionda sülh ili ola bilər və olmalıdır. Bu, özündə şanslar və məsuliyyətlər gətirir".

Prezident İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü zamanı isə sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində iki ölkə arasında birbaşa danışıqlarda əldə edilmiş nəticələr qeyd olunub. Frank-Valter Ştaynmayer bildirib ki, Almaniya tərəfi Ermənistanla Azərbaycan arasında sülh gündəliyini yaxından dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir.

Azərbaycan dövlət başçısının Almaniya Federativ Respublikasının xarici işlər naziri ilə görüşü zamanı Annalena Berbok Almaniyanın Ermənistanla Azərbaycan arasında sülh gündəliyini bundan sonra da dəstəkləyəcəyini vurğulayıb.

*P.SADAYOĞLU*

# Bir ayda ikinci zəng...

## Azərbaycanın mövqeyi beynəlxalq aləm üçün xüsusi əhəmiyyətə malikdir

Ötən ilin dekabrından başlayaraq Ermənistan ilə Azərbaycanın delimitasiya və demarkasiya üzrə müvafiq dövlət komissiyalarının intensiv görüşləri öz bəhrəsini verməkdədir. 2023-cü ilin dekabrın 7-də yayılmış birgə bəyanat, 2024-cü il aprelində isə 4 kəndin qaytarılması ilə bağlı əldə olunan razılaşma, sülh prosesinə dinamizm qazandırmaq üçün planlaşdırılan məsələlər onu göstərir ki, Azərbaycanın təşəbbüsü ilə meydana çıxmış ikitərəfli görüşlər mühüm nəticələr vəd edir. Artıq vasitəçisiz olaraq münasibətlərin normallaşması prinsipləri müzakirə edilir, ortaq nöqtələrin tapılması üçün real addımlar atılır. Buna ən real misal isə yaxın zamanda Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin Almatıda görüşünün planlaşdırılmasıdır. Bəlli olduğu kimi, görüşlə bağlı artıq tərəflər öz mövqelərini bəyan ediblər. Bu kimi görüşlər isə Cənubi Qafqazda yeni siyasi-iqtisadi, ən əsası isə ticari situasiyanın formalaşmasına yol açan amillərdən sayılır.



## ABŞ Dövlət katibi əldə olunmuş razılaşma ilə bağlı təbriklərini çatdırıb

### Cənubi Qafqazı gözləyən perspektiv...

Bu gün ölkəmizin Cənubi Qafqazın ümumi inkişaf tempinin daha da sürətlənməsi, əməkdaşlıq platformalarının genişləndirilməsi işində oynadığı rol əvəzsizdir. Cənubi Qafqazın stabil və sabit məkan kimi şöhrət tapması, tanınması qlobal layihələrin bizim coğrafiyada təşəkkül tapmasını təmin edən mühüm faktlardan birinə çevrilmə imkanını formalaşdırır. Bu isə prosesin beynəlxalq miqyasda diqqətlə izlənilməsini təmin edir. Təsadüfi deyil ki, bölgədə stabilləşdirici faktor kimi tanınan Azərbaycanın mövqeyi beynəlxalq aləm üçün xüsusi əhəmiyyətə malikdir - bu məqam, bütün detalları ilə ortadadır. Azərbaycanın son antiterror tədbirləri ilə yaratdığı mənzərə regionun gələcəyinin yeni inkişaf strategiyası, hətta yol xəritəsi sayılır və qəbul edilir - hətta böyük güclər Cənubi Qafqaz ölkələrinin bu yeni inkişaf strategiyasını yaxından təqib edir, onun bütün ştrixlərini nəzərə alırlar. Regionda reallaşmış tarixi layihələr - Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta Dəhliz kimi mühüm layihələrin yeni mahiyyətdə diversifikasiya edilməsi Şərq - Qərb ticari xəttinə yeni rənglər qazandıracaq. Ölkəmizin yaratdığı yeni mərhələ isə bu inkişafı daha da irəliyə daşımaq əzmindədir. Bu amil isə bütün böyük dövlətlər tərəfindən qəbul edilir. Təsadüfi deyil ki, aprel ayı ərzində ABŞ-ın Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə iki dəfə zəng edib.



Aprelin 28-də edilən zəng zamanı Antoni Blinken, ilk növbədə, Ermənistan ilə Azərbaycan arasında sərhədlərin delimitasiyası sahəsində əldə olunmuş razılaşma ilə bağlı təbriklərini çatdırıb, bunun ABŞ tərəfindən təqdir edildiyini vurğulayıb. Dövlət katibi ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyinin irəli aparılması üçün bundan sonra da dəstək göstərməyə hazır olduğunu bildirib. Dövlətimizin başçısı iki ölkənin delimitasiya komissiyası tərəfindən əldə olunmuş razılaşmanın ikitərəfli əsasda aparılmış dialoq və qarşılıqlı anlaşma şəraitində keçirilmiş müzakirələrin nəticəsi olduğunu qeyd edib. Prezident İlham Əliyev delimitasiya prosesinin ardınca iki ölkənin sərhədində artıq demarkasiya işlərinin başlanmasının da müsbət bir addım olduğunu vurğulayıb.

İkitərəfli təmasların verdiyi nəticələr göz önündədir - illərdir ki, Ermənistanın ortaya qoyduğu qeyri-konstruktiv mövqe bölgənin sabit və davamlı inkişafına ən böyük maneə qismində çıxış edib. Halbuki, Azərbaycanın mövqeyi aydın və şəffafdır. Artıq "Qarabağ problemi" adlı bir məsələ yoxdur və bu mənada yeganə həll olunası məsələ məhz münasibət-

### Sülh gündəliyinin irəliyə aparılması üçün...

lərin normallaşması, sərhədlərin müəyyənləşdirilməsidir. Azərbaycan dəfələrlə bəyan edib ki, Ermənistanla hər hansı bir müzakirədə kimlərinsə iştirakına ehtiyac yoxdur. Dövlətlər ikilikdə də danışıb bütün suallara aydınlıq gətirə bilər. Son proseslər bu fikri qəti şəkildə təsdiqlədi. Çünki tənzimləmə üçün beynəlxalq hüquq və əsas götürülən sənədlər kifayət edir - fərqli maraq, fərqli müdaxilə isə yalnız və yalnız problemlər yarada bilər. Məsələn, Fransanın timsalında Ermənistanı sülhdən yayındıran bəzi qüvvələrin qeyri-adekvat davranışları indiyə qədər müsbət impulsların əldə olunmasını istisna edirdi. O baxımdan, hazırkı situasiya bir daha təsdiqləyir ki, məsələnin birdəfəlik həlli üçün Ermənistan mütləq siyasi iradə nümayiş etdirməli, prosesdə müstəqil iştirak etməlidir.

### Sülh müqaviləsinin əsasını təşkil edən 5 prinsip...

Telefon danışığı zamanı dövlətimizin başçısı sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsi üçün Qazaxıstan tərəfinin təklifinə uyğun olaraq tezliklə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Almatıda görüşəcəklərini bildirib. Sülh müqaviləsinin və onun əsasını təşkil edən 5 prinsipin təşəbbüskarının Azərbaycan Respublikası olduğunu xatırladan Prezident İlham Əliyev ölkəmizin sülh gündəliyinin bundan sonra da davam etdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb və Azərbaycanın bu xüsusda qəti siyasi iradəyə malik olduğunu qeyd edib. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan regionda hər hansı ayırıcı xətlər olmadan inteqrasiya olunmuş Cənubi Qafqaz regional əməkdaşlıq modelinin qurulmasını dəstəkləyir.

Bəli, Azərbaycanın hələ 2022-ci ilin martında irəli sürdüyü məsələlər bu və ya digər şəkildə bu gün Ermənistanın siyasi rəhbərliyi tərəfindən təsdiqlənir. Belə ki, Azərbaycanın irəli sürdüyü 5 baza prinsipinin birincisi dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanımasıdır. Bu məsələ həm BMT-nin təməl prinisiplərinə, həm də digər beynəxalq qanunvericiliyə əsaslanır. Ermənistan Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımalıdır. Bu, amil Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində ən mühüm addım sayıla bilər. Aprelin 19-da əldə olunan razılaşma isə bu detalın qarşıdakı mərhələdə tam və praktik şəkildə həyata keçəcəyini deməyə əsas verir. Digər bir prinsip isə, dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsidir. 200 ilə yaxındır ki, Azərbaycana qarşı əsassız torpaq iddaları irəli sürən, işğal siyasəti aparan Ermənistan artıq bu iddialarından geri durmalıdır. Onlar anlamalıdırlar ki, bu cür xəstə təfəkkürə söykənən əsassız iddialar iki xalqın arasında münasibətlərin kəskinləşməsi ilə yanaşı, normal qonşuluq münasibətlərinin yaranmasına da mane olur. Burada da ikitərəfli təmasların rolu böyük ola bilər - məsələn, sərhədlərin müəyyənləşməsi məsələsi Ermənistanın gələcəkdə hər hansı bir əsassız iddia səsləndirməsinin qarışısını alacaq hüquqi sənəd qismində çıxış edəcək. Üçüncü baza prinsipi isə dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinməkdir. Bundan başqa, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması, o cümlədən, nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması da ikitərəfli münasibətlərin normallaşması üçün nəzərdə tutulan baza prisipləri arasında yer alır. Bu müddəalara nəzər saldıqda məlum olur ki, iki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilərlər. Bu, qarşıdakı dövrdə ölkələr arasında normal münasibətlərin qurulmasına da stimul verən amilə çevrilər. Yəqin ki, Qazaxıstanda baş tutacaq danışıqlar prosesinin növbəti və yeni raundundan sonra bu və ya digər məsələlərin qısa zamanda reallaşmasının da şahidi ola biləcəyik.

Beləliklə, sülhün imzalanmasına bir addım qalmış mənzərə təxminən bu formadadır - Azərbaycan dünyanın yeni iqtisadi münasibətlər sistemində özünəməxsus yerə malik olan Cənubi Qafqaz platformasının inşasını uğurla davam etdirir, bu yolda ortaya çıxan maneələri aradan qaldırmaq üçün bütün diplomatik, iqtisadi, siyasi rıçaqlarından istifadə edir. Verilən bəyanatlar, səsləndirilən fikirlər bu prioritetin nə qədər ciddi olması ilə yanaşı, uğur qazanma ehtimalının da böyüklüyünü ortaya qoyur. Bu əməkdaşlıq mühiti isə Cənubi Qafqaz üçün təhdid yaradan ayrıcı xəttlərin birmənalı şəkildə aradan qalxmasını da təmin edəcək...

### Əməkdaşlıqdan məmnunluq ifadə olunub...

Dövlət katibi Antoni Blinken ABŞ ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin gücləndirilməsi üçün ölkəsinin niyyətini ifadə edərək enerji, iqlim, nəqliyyat, COP29 sahələrində əməkdaşlıq məsələlərini qeyd edib. Dövlətimizin başçısı da öz növbəsində Azərbaycanın ABŞ ilə ikitərəfli əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu vurğulayıb. Telefon söhbəti zamanı COP29 çərçivəsində Azərbaycan və ABŞ nümayəndə heyətləri arasında əməkdaşlıqdan məmnunluq ifadə olunub.

Ümumiyyətlə, Azərbaycanın Cənubi Qafqaz üçün müəyyənləşdirdiyi mühüm gələcək potensialı həm də çoxşaxəliliyi ilə seçilir - burada ənənəvi iqtisadi imkanlar, tranzit - logistika seqmenti, daşımaçılıqla yanaşı, yeni qlobal çağırışlar da yer almaqdadır. Bu ilin sonunda Bakıda baş tutacaq COP29 Azərbaycanla yanaşı, bölgənin yaşıl inkişafında yeni bir mərhələ sayılır. Sözügedən nüfuzlu, qlobal xarakterli tədbirin məhz Bakıda keçirilməsinə dair qərarın yekdilliklə dəstəklənməsi isə mühüm əhəmiyyətə malikdir. Azərbaycana növbəti dəfə inanılıb və hörmət göstərilib. Bu, son dərəcə böyük etimaddır. Dünya birliyinin respublikamıza bu böyük etimadı göstərməsi isə heç də təsadüfi deyil. Bu, bir tərəfdən Azərbaycanın apardığı siyasət, digər tərəfdən isə ölkəmizin müsbət reallıqları ilə bağlıdır. Xüsusi vurğulanmalıdır ki, hətta Ermənistan da COP29-a Azərbaycanın ev sahibliyi etməsi ilə bağlı razılığını bildirmişdi. Dekabr ayında iki dövlətin müvafiq strukturlarının birgə bəyanatında bu məqam vurğulanırdı. Beləliklə, payızda baş tutacaq COP29 bölgə üçün xüsusi özəlliyi ilə də seçilə bilər - məsələn, o zaman qədər iki dövlət arasında əldə olunacaq sülh yaşıl dünya imknlarını və çağırışlarını daha da irəliyə daşımaq üçün perspektiv formalaşdırır. Bunun üçün imkanlar mövcuddur.

### İnsan hüquqlarının qorunması...

Antoni Blinken son zamanlarda Azərbaycanda insan haqları ilə bağlı atılmış addımları müsbət qiymətləndirərək, bunun davamlı olması ilə əlaqədar arzusunu da ifadə edib. Prezident İlham Əliyev Azərbaycanın insan hüquqları sahəsində öhdəliklərinə sadiq olduğunu və ölkəmizdə demokratik islahatların davam etdirildiyini diqqətə çatdırıb.

Azərbaycanın insan hüquq və azadlıqları kontekstində nə qədər ciddi və prinsipial mövqedə olması bütün dünya üçün açıq məsələdir. Ölkəmizdə fundamental insan hüquq və azadlıqlarının qorunması üçün əsas sənəd rolunda çıxış edən ölkə Konstitusiyası mövcuddur ki, bu sənədin təxminən yarıdan çoxu insan hüquq və azadlıqlarının ayrı-ayrı kontekstlərini əhatə edir. Azərbaycan eyni zamanda, tolerantlıq nümunəsi olaraq da dünyada fərqlənir. Ölkəmizdə dini, irqi, etnik baxımdan ayrı-seçkilik yoxdur və Konstitusiya ilə bütün ölkə vətəndaşları qanun qarşısında bərabərdir. Digər tərəfdən, ölkəmizdə söz və mətbuat azadlığının mövcud olması Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunur. Bir sözlə, ölkəmizdə fundamental insan hüquq və azadlıqları qanunvericiliyin tələbləri əsasında yüksək səviyyədə təmin edilir. Ölkəmiz insan hüquqlarının qorunması prinsiplərini özündə ehtiva edən beynəlxalq müqavilələri və konvensiyaları dəstəkləyir - BMT Baş Məclisinin 1948-ci il qətnaməsi ilə qəbul olunan "İnsan hüquqları haqqında" Ümumi Bəyannaməni dəstəkləyən Azərbaycan bu istiqamətdə götürdüyü bütün öhdəlikləri yerinə yetirib.

Azərbaycanda insan hüquq və azadlıqlarının qorunıması istiqamətində atılan addımları müsbət dəyərləndirməklə Antoni Blinken həm də ABŞ Dövlət Departamentinin 2023-cü il üzrə insan haqların dair hesabatında yer alan məqamların qərəzli olduğunu, əsl həqiqəti əks etdirmədiyini etiraf etmiş olur. Bu hesabatın təzyiq xarakteri daşıdığı bütün komponentlərindən bəlli idi - ABŞ Dövlət katibinin fikirləri isə bir daha onu göstərir ki, bu kimi hesabatlar heç də detallı şəkildə həqiqəti özündə ehtiva etmir. Başqa sözlə, bu kimi "hesabatlar" açıq ikili standartın növbəti nümunəsidir...

***P.İSMAYILOV***

# Yaşıl körpü, enerji həmrəyliyi...

## Azərbaycan Almaniyadan Avropa missiyasını bəyan etdi

Prezident İlham Əliyev "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxışı zamanı Azərbaycanın müasir iqtisadi inkişaf vizyonunu təsvir edən əsas məqamları xatırlatmaqla ölkəmizin dünya birliyində nüfuzlu iqtisadi tərəfdaş olmasını bir daha təsdiqlədi. Dövlət başısı ilk növbədə, Azərbaycanın COP29-a ev sahibliyi edən ölkə kimi üzərinə düşən böyük məsuliyyəti dərk edərək "yaşıl enerji" sahəsində qətiyyətli addımlar atdığını xatırlatdı. Respublikamız beynəlxalq koalisiya ilə sıx əməkdaşlıq edərək enerji formatını daha da möhkəmləndirir və qitələr arasında yaşıl körpülər salır, beynəlxalq düzəndə enerji həmrəyliyini gücləndirir.

Ötən 20 ilin enerji statistikası da təsdiq edir ki, Azərbaycan beynəlxalq platformalarda həmişə nümunəvi missiyası ilə seçilib, neft ixrac etdiyi ilk gündən heç bir siyasi məqsəd və məram güdməyib, enerji amilini yalnız dostluq və faydalı əməkdaşlığa yönləndirib. Qazandığı dərin hörmət enerjinin növbəti şaxəsi olan yanacaq nəqlində də özünü nümayiş etdirib, Azərbaycan faydalı qazıntı ilə zəngin olan ölkə kimi OPEC+ platformasının üzvü kimi kartel ölkələrinin sırasında nüfuz və etimad qazanıb. Bu etibar və etimadın növbəti səhifəsi Cənub Qaz Dəhlizi ailəsində Azərbaycanın humanizm və xeyirxahlığında özünü təzahür etdirib. Gürcüstandan başlamış Mərkəzi Avropaya qədər hər bir qaz alan ölkəyə dünya qiymətlərindən sərfəli yanacaq ötürülməklə onlara əsil dostluq davranışı nümayiş etdirilib.

2022-ci ildə Avropa İttifaqı və Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması Avropa İttifaqına təbii qaz təchizatının artmasında növbəti mərhələ olub və hazırda təbii qaz ixracı 12 milyard kubmetri ötməkdədir. Memoranduma əsasən, 2027-ci ilə qədər Avropa İttifaqına ixracın 20 milyard kubmetrə çatdırılması isə Azərbaycanın sadiq ölkə və sözünə, imzasına məsuliyyətlə yanaşan Cənubi Qafqazın flaqmanı olmasına dəlalət edir. Mürəkkəb bir geosiyasi və coğrafi bölgədə yerləşən ölkəmiz son illərdə bölgədə baş verən bu geosiyasi durumlarda Avropaya yeni mənbələrdən daha çox qaz lazım olduğu kriktik məqamlarda öz imkanlarını səfərbər etməklə bir daha qətiyyətini nümayiş etdirdi.

Azərbaycan hazırda "yaşıl həmrəylik" proqramı üzrə dünya ölkələri arasında yeni inteqrasiya cığırında irəliləyir. Azərbaycan strateji infrastrukturlarını müasirləşdirərək "yaşıl enerji" kabelinin əsas coğrafiyası kimi yenə də Avropa ölkələri arasında xüsusi yer tutur. Son 2 ildə Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat və 44 şirkətlə "yaşıl enerji" sahəsində əməkdaşlığa dair sənədlər imzalayan ölkəmiz "Xəzər-Qara dəniz-Avropa" dəhlizini reallaşdırır. Xəzər dənizindən Qara dənizə, oradan da Avropaya doğru gedən yaşıl kabel Avropa ilə Asiya "yaşıl körpü"nün ən rentabelli xətti olacaq.

Bu dəhlizin iqtisadi gücü və beynəlxalq maliyyə tutumu heç də Cənub Qaz Dəhlizindən az olmayacaq. Təkcə Azərbaycan "yaşıl kabel" vasitəsilə 2027-ci ilin sonuna qədər 2000 meqavat enerji ixrac edəcək. Ümumilikdə, Azərbaycan 2030-cu ilə qədər hazırda inşa olunan 9 stansiyadan əlavə 10 günəş və külək enerjisi stansiyaları da quracaq ki, onların gücü 5000 meqavat (5 qiqavat) təşkil edəcək. Bütün yaşıl gücləri nəzərə alsaq,



Azərbaycan, ən azı 157 qiqavat potensialla bazara daxil olacaq. Bu potensialdan istifadə edərək, ölkəmiz həm daxili qaz istehlakını elektrik enerjisi istehsalı ilə əvəzləyəcək, həm də Avropanın ənənəvi qazdan yaşıl enerjiyə keçidinin əsas təminatçılarından biri olacaq.

Prezident İlham Əliyevin Almaniya səfəri zamanı digər diqqətçəkən məqam Federativ Respublikanın Kansleri Olaf Şoltsla görüşdə və media üçün açıqlamada səsləndirdiyi mühüm iqtisadi frazalar oldu. İlk növbədə cənab Şolts COP29 iqlim konfransının Bakıda keçirilməsinin Azərbaycanın bərpa olunan enerji sahəsinin inkişafında beynəlxalq qurumlarla əməkdaşlığı üçün yeni imkanlar yaradacağına əminliyini ifadə etməklə respublikamızın strateji əhəmiyyətinə toxundu. Eyni zamanda, Azərbaycanın "yaşıl enerji" strategiyasının reallaşmasında ortaya qoyduğu iradə təqdir olunmaqla, Aİ-nin həmin təşəbbüsləri dəstəyini ifadə etdi.

Azərbaycanın dövlət başçısı bu görüşdə də dünyanın əsas gündəliyi olan "yaşıl enerji" imkanları və Azərbaycanın bu prosesdə töhfəerici rolu barədə oldu və qeyd olundu ki, Azərbaycan Avropa üçün yaşıl enerji təchizatçısı kimi məsuliyyətinə də çox dəqiqliklə yanaşacaq. Bu isə 1994-cü ildə başlanmış enerji dostluğunun daha uzun illər davam edəcəyini və zəngin Azərbaycanın yeni enerji resursları ilə Avropanın əhəmiyyətli tərəfdaş olmaq statusunu möhkəmləndirəcəkdir.

Dövlət başçısı neft və qazdan əldə edilən gəlirlərin ötən illərdə iqtisadi və sosial proqramlara yönəldildiyini və həmin sektorlarda böyük sosial dəyişikliklərin yarandığını xatırladaraq hazırda enerji dividentlərinin ölkəmiz üçün bir nömrəli vəzifə və çağırış olan Qarabağın və Şərqi Zəngəzurun bərpasına istiqamətləndiyini xatırlatdı. Bu bölgə Azərbaycanın təkcə aqrar və aqrar-sənaye, turizm, mineral resurslar mənbəyi deyil, həm də "yaşıl enerji" xəzinələrindən biridir. Qarabağ, və Şərqi Zəngəzur bölgəsi "yaşıl enerji" zonası elan edilməklə Azərbaycanın elektrik enerjisi istehsalında "yaşıl enerji" istehsalında payının artmasında əsas güc mənbəyi olacaq, eyni zamanda, Avropanın özünün də yaşıl hidrogenlə təminat bölgəsinə çevriləcək.

***ELBRUS***

# Milli-mədəni irsimizin hamisi, xeyriyyəçilik ünvanı-Heydər Əliyev Fondu

Tarix şəxsiyyətlər yetişdirir. Şəxsiyyətlər də tarix yaradır. Dühalar isə doğulur. Onların missiyaları xilaskarlıq olur - tarixin, dövlətin və millətin xilaskarı missiyası. Bu gün biz Türk dünyasının böyük oğlu, dövlət xadimi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik. Mən çox böyük fəxarət hissi ilə bildirmək istəyirəm ki, Ulu Öndər Heydər Əliyevin müasiri olmuşam, onun Azərbaycana rəhbərliyi dövründə elmi, siyasi və dövlət idarəçiliyi prosesində iştirak etmiş, böyük şəxsiyyətlə görüşmüş və onun rəhbərliyi







ilə müxtəlif tədbirlərinin iştirakçısı olmuşam. Müstəqil Azərbaycan Respublikasının sosial sahələrinin, o cümlədən, Azərbaycan səhiyyə sisteminin, tibb elmi və tibb təhsili sistemlərinin yaradılmasının əsrlik tarixinin ayrı-ayrı mərhələlərini təhlil etdikdə aydın nəzərə çarpır ki, bu sistemlər sadəlikdən mürəkkəbliyə, primitivlikdən aliliyə, müstəmləkəçilikdən müstəqilliyə doğru böyük bir inkişaf yolu, böyük bir yüksəliş yolu keçibdir. Belə yüksəlişin ən mühüm, ən sürətli və ən keyfiyyətli inkişafının tarixin solmaz səhifələrinə qızıl hərflərlə həkk olunan mərhələsinin məhz Ümummilli Lider dahi Heydər Əliyevin adı ilə bağlı olması əlavə kəlməyə ehtiyac duyulmayan aydın həqiqətlərdəndir. Gözlərimiz önündə şərəflə yaşanan ömrünün 35 ilə yaxın bir dövründə Azərbaycana rəhbərlik edən, onun ən parlaq yaradıcısı, qurucusu, ilhamverici qüvvəsi olan, bəşərilik zirvələrini fəth edərək əbədiyaşarlıq rəmzinə çevrilən Ulu Öndər Heydər Əliyev bütövlükdə Azərbaycan Respublikası ilə birlikdə həm də Azərbaycan səhiyyəsinin, Azərbaycan tibb elmi və tibb təhsili sistemlərinin ən möhtəşəm memarı, yaradıcısı, qurucusu, dinamik inkişafının tənzimləyicisi kimi şüurlara, yaddaşlara əbədi həkk olunub. Ulu öndər XX əsrin ikinci yarısından etibarən yalnız ona xas olan bənzərsizlik və təkrarsızlıq, spesifik fenomenlik xüsusiyyətləri ilə həm özü dünya diplomatiyasının ön sıralarına ucalaraq bəşərilik qazandı, həm də Azərbaycanın dünyaya Günəş kimi parlamasının möhkəm təməlini yaratdı. Ulu Öndər Heydər Əliyev qlobal düşüncəli, geniş dünyagörüşlü nəhəng bir siyasətçi idi. O, realist bir insan olaraq hadisələrə praqmatik yanaşırdı, tarixi şəraitdən düzgün baş çıxarırdı, ölkənin taleyi üçün uğurlu qərarlar qəbul edirdi. O, beynəlxalq aləmdə tarazlaşdırılmış siyasətin, ölçülüb-biçilmiş fəaliyyətin ustadı idi. Bu dahi siyasət adamı bütün fəaliyyəti boyu müdrik insan, peşəkar rəhbər, xalq məhəbbətini qazanan uzaqgörən siyasətçi və ağıllı dövlət xadimi olduğunu təsdiq etmişdir. Heydər Əliyevin siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, habelə sosial-iqtisadi tərəqqinin əldə olunması kimi taleyüklü məsələlərdə uğurla sınaqdan çıxmışdır. Tarixi, adət-ənənələri, milli fəlsəfi məfkurəni, təcrübəni və zəngin mədəniyyətimizin bütün çalarlarını özündə ehtiva edən azərbaycançılıq ideologiyasının müəllifi Heydər Əliyevdir. Azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən milli məfkurəyə çevrildi. Milli ruhun yüksəlməsi, milli özünüdərkin inkişafı və xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsip və vəzifələrə xidmət edən azərbaycançılıq məfkurəsi dövlətin qüdrətinin artırılmasında real siyasi amilə çevrilmişdir. İşlək siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, milli həmrəylik və xalqın bütövlüyü təmin edən ideologiyanın yaradılması, habelə bir çox digər təşəbbüslər dövlətçilik ənənələrin inkişafına xidmət edən Ulu Öndər Heydər Əliyevin bilavasitə xidmətidir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar sayəsində ölkənin siyasi-hüquqi sistemində müsbət dəyişikliklər oldu. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması faktını beynəlxalq təşkilatların siyasi gündəliyinə gətirən şəxs məhz Ulu Öndər olmuşdur. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi xarici siyasətimizin əsas prioritetinə çevrildi. Ulu Öndər Heydər Əliyev bir çox dünya dövlətləri ilə bu mövzuda danışıqlar apararaq beynəlxalq tədbirlərdə, o cümlədən sammitlərdə Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi və Ermənistanın işğalçılıq siyasətinin pisləndiyi qətnamələrin və bəyanatların qəbul olunmasına nail olmuşdur. Vətən müharibəsində qazanılan tarixi Zəfər məhz Heydər Əliyev siyasi irsinin bu gün də yaşamasının və Prezident İlham Əliyevin bu irsi qətiyyətlə davam etdirməsinin, Ulu Öndərin qoyduğu siyasi xəttə vətəndaş inamının məntiqi nəticəsidir. Çünki bu ideologiyanın təməlində milli-mənəvi dəyərlərimiz, müstəqil dövlətçilik, azərbaycançılıq məfkurəsi dayanır. Bu gün Prezident İlham Əliyevin gördüyü işlər Azərbaycanın güclü, bütün məsələlərlə bağlı öz prinsipial mövqeyi olan, müstəqil siyasi iradə nümayiş etdirən ölkə kimi tanınmasını şərtləndirib. Həyata keçirilən uğurlu siyasət Azərbaycanı yalnız regionda deyil, həmçinin beynəlxalq miqyasda da söz sahibi olan bir ölkə kimi tanıtdırıb. İkinci Qarabağ-Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə bu uğurların məntiqi nəticəsidir. Ulu Öndərin siyasi hakimiyyətə Qayıdışı Qarabağa Böyük Qayıdışın əsasını qoydu. "Azərbaycan Prezidentinin 2022-ci il 29 sentyabr tarixli sərəncamına əsasən Azərbaycan xalqı 2023-cü ili - "Heydər Əliyev İli"ni doğma Qarabağımızın yenidən çiçəklənməsi və Böyük Qayıdışla qeyd edildi. Ulu Öndər Heydər Əliyev bütün həyat və fəaliyyətini Azərbaycana və onun inkişafına, tərəqqisinə həsr edib. Ölkəmizin digər sahələrində olduğu kimi Azərbaycan səhiyyəsinin, Azərbaycan tibb elmi və tibb təhsili sisteminin də bütün ağırlıqlarını öz möhkəm çiyinləri üzərinə götürərək onu inkişaf etdirən və gələcək perspektivlərini müəyyənləşdirən dahi Heydər Əliyev dəsti - xətti, Heydər Əliyev qüdrəti öz möhtəşəmliyi ilə kəskin surətdə seçilir və bənzərsizliyi ilə fərqlənir. Ona görə də müstəqil Azərbaycan Respublikasının memarı olan Heydər Əliyev ideyalarının dəyərli nəticələri Azərbaycan tibb elmi və tibb təhsili sisteminin, Azərbaycan səhiyyəsinin də sarsılmaz dayağı, ilhamverici qüvvəsidir. Ulu Öndərin dünyəvi ideyalarına söykənən siyasət əbədidir, həmişəyaşardır, qaranlıqlara nur çiləyən sönməz mayakdır. Onun Azərbaycan səhiyyəsinin, eləcə də Azərbaycan tibb elmi və tibb təhsili sisteminin dayanıqlı və sabit inkişafının təminatına işıq salan ideyaları daim yaşayacaq, var olacaqdır. Heydər Əliyev dühasının və zəhmətinin bəhrəsi olan müstəqil Azərbaycan dövləti daim var olacaq, Ulu Öndərin dediyi kimi, "əbədiyyətə qədər yaşayacaqdır". Ümummilli Liderimiz Heydər Əliyevin siyasəti Onun layiqli davamçısı, siyasi varisi cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan müasir, qüdrətli və dinamik inkişafa malik olan ölkə kimi tanınır. Bütün sahələrdə ardıcıl və sistemli islahatlar həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində bütün istiqamətlərdə, o cümlədən elm, təhsil, səhiyyə sahələrində davamlı inkişaf müşahidə edilir. Xüsusilə də, səhiyyə sahəsində uğurlu addımlar atılıb, bu sahənin inkişafı üçün bütün imkanlar yaradılıb. Bütün deyilənləri nəzərə alaraq belə qənaətə gələ bilərik ki, Azərbaycan milli dövlətçilik ənənəsinin formalaşması və həyatın bütün sahələrini, o cümlədən səhiyyə, tibb elmi, tibb təhsili sistemimizi əhatə edən çoxşaxəli fəaliyyət və əldə olunan uğurlar, milli-mənəvi dəyərlərin təşəkkül tapması, tarixi soy-kökə qayıdış, azərbaycançılıq dünyagörüşünün formalaşması məhz anadan olmasının 101-ci ildönümünü qeyd etdiyimiz Ulu Öndərin ideyalarının reallığa çevrilməsinin məntiqi nəticələridir.

Ümummilli Lider Heydər Əliyevin zəngin irsini öyrənmək, təbliğ etmək, Onun Azərbaycanın sosial-iqtisadi və mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə əyani təsəvvür yaratmaq, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləmək, Azərbaycanın mədəniyyətinin və tarixinin dünyada daha geniş tanıdılması ilə bağlı aparılan işlərə kömək göstərmək məqsədilə 2004-cü ildə Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondu təsis olundu. Məlum olduğu kimi, mayın 10-da Heydər Əliyev Fondunun yaradılmasının 20 ili tamam olur. Fond ötən 20 il ərzində Azərbaycanda təhsil, səhiyyə, mədəniyyət sahəsində mühüm tədbirlər reallaşdırıb, ölkə həqiqətlərinin dünyaya çatdırılmasında müstəsna xidmətlər göstərib.Eyni zamanda, Fond xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etməyi, ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etməyi, uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirməyi, ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləməyi, sağlam həyat tərzini təbliğ etməyi, Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar, eləcə də, uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etməyi, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verməyi öz fəaliyyətində prioritet məsələlər kimi görür. Bir sözlə, Heydər Əliyev Fondunun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir. Ən əsası isə odur ki, Heydər Əliyev Fondu Ulu Öndərin ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun ötən 20 illik fəaliyyəti cəmiyyətimizin bütün üzvləri, o cümlədən beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Heç də təsadüfi deyil ki, Prezident İlham Əliyev də Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 10 illiyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində Fondun fəaliyyətinə olduqca yüksək qiymət verib. Dövlətimizin başçısı vurğulayıb ki, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Fond nəinki Azərbaycanda, eyni zamanda, regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir. "Bu gün Heydər Əliyev Fondu Ulu Öndərin adını şərəflə daşıyır, Ulu Öndərin xatirəsinə layiq fəaliyyət göstərir", - deyə dövlətimizin başçısı qeyd edib. 2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.

Heydər Əliyev Fondu həm də milli-mədəni irsimizin hamisi, xeyriyyəçilik, təbii fəlakətlərdən zərər çəkənlərə yardım, ana və uşaq sağlamlığının qorunması və digər məsələlərlə bağlı humanitar addımların da təşəbbüskarıdır. Heydər Əliyev Fondunun qarşıya qoyduğu hər bir xoş məram Ulu Öndərimizin ali ideallarını özündə ehtiva edir. Fondun istər xeyriyyəçilik, istərsə də ictimai fəaliyyətinin əsas prioritetləri sırasında səhiyyə, elm və təhsilin mühüm yer tutması təsadüfi deyil. Bu sahənin dinamik inkişafı milli-mədəni irsin qloballaşma tendensiyalarında hifz olunması, gənc nəslin sağlam böyüməsi və təlim-tərbiyəsinin yüksək səviyyədə qurulması, bugünün uşaqlarının gələcəyin layiqli vətəndaşları kimi yetişməsi yolunda məqsədyönlü işlərin görülməsindən, ilk növbədə həqiqi vətənpərvərlikdən irəli gəlir. Bu baxımdan Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin 1-ci Vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın səhiyyə, elm və təhsilin tərəqqisinə xüsusi münasibəti onun fəal vətəndaşlıq mövqeyində dayanmasının, xalqına olan sonsuz məhəbbətinin, nümunəvi vətənpərvərliyinin bariz ifadəsidir. Azərbaycanın birinci xanımı Ulu Öndərimizin əsasını qoyduğu, Prezident İlham Əliyevin layiqincə davam etdirdiyi konseptual sosial-mədəni strategiyasının həyata keçirilməsinə öz töhfəsini verir. Məhz onun müəyyənləşdirdiyi prioritetlərin nəticəsi kimi Heydər Əliyev Fondu yarandığı gündən ölkəmizin mədəni və humanitar həyatında öz sözünü deyir.

***Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov***

# Kəlbəcər - "yaşıl investisiyalar" üçün cəlbedici zona

Kəlbəcər Ermənistanın işğalından azad edildikdən sonra böyük quruculuq meydanına çevrilmiş rayonlarımızdan biridir. Bu bölgədə nəhəng infrastruktur layihələrinin icrası sürətlə davam etdirilir. Ötən 3 il ərzində Kəlbəcərdə tunel-körpü və magistral yolların inşası sürətlə aparılıb, bir çox obyektlərin istifadəyə verilməsi mümkün olub. Rayonda 7 yaşayış məntəqəsinin (İstisu qəsəbəsi, Qamışlı, Çaykənd, Nadirxanlı, Qılınclı, Otaqlı və Çıraq kəndləri), eləcə də 4 kəndin (Çəpli, Keşdək, Dalqılınclı və İmanbinəsi kəndləri) layihələndirilməsi işləri yekunlaşıb və kəndlərin tikintisinə dövlət büdcəsindən ayrılmış vəsaitlərin icrası təmin olunmaqdadır. Bu, Kəlbəcərin Böyük Qayıdış Proqramı çərçivəsində yaxın vaxtlarda öz sakinlərinə qovuşacağından xəbər verir. Ümumilikdə, 2026-cı ilədək 1-i şəhər, 1-i qəsəbə, 13-ü kənd olmaqla ümumilikdə 15 yaşayış məntəqəsinin bərpası həyata keçiriləcəkdir.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı strategiyasına uyğun olaraq, Kəlbəcər rayonunda bərpa olunan enerji mənbələrinin istifadəsinə xüsusi diqqət yetirilir və indiyə qədər "AzərEnerji" 6 yerdə kiçik su elektrik stansiyası (SES) yenidən quraraq istismara verib. Belə ki, 2022-ci ildə 4,4 meqavat gücündə "Kəlbəcər-1" istismara verilib ki, Lev çayı üzərində inşa olunan bu stansiya "Yaşıl enerji" zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edir və Azərbaycanın ümumi enerji sisteminə qoşulub. Bundan başqa, 2023-cü ildə istifadəyə verilmiş 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" kiçik SES-ləri də tam rəqəmsallaşmış enerji gücləridir. Bu isə istehsal olunan elektrik enerjisinin maya dəyərinin aşağı düşməsinə və iqtisadi sərfəlilik baxımından ən əhəmiyyətli enerji infrastrukturları deməkdir. Eləcə də "Soyuqbulaq" və digər SES-lər Avropa istehsalı olan yaşıl sertifikatlı ekoturbin, generatorlar, idarəetmə və avtomat panellər quraşdırılmaqla ən müasir enerji gücləri kimi diqqəti cəlb edir.

Həmçinin, rayon işğaldan azad ediləndən dərhal sonra Daşkəsən rayonundan Kəlbəcərə 3500 metr yüksəklikdəki Murov dağını keçməklə 70 km məsafədə yüksək gərginlikli ikidövrəli ötürmə xətti çəkilib. Dağlar sıldırımlı, hava sərt şaxtalı, qarın qalınlığı 3-5 metrə çatan yolsuz ərazilərdə hündürlüyü 50 metr, çəkisi 10 ton olan anker dayaqlar quraşdırılaraq şəraitsiz vəziyyətdə vəzifə icra edilib. Paralel olaraq, sərt iqlim və çətin relyefdə yerləşən Kəlbəcərdə 110/35/10 kilovoltluq rəqəmsal yarımstansiya tikilib. 2021-ci ilin



yayında yarımstansiyanın açılışı olub.

Hazırda Kəlbəcər rayonunda 4 yerdə kiçik SES-lərin tikintisi aparılır. "Aşağı Vəng", "Yuxarı Vəng", "Nadirxanlı" və "Zar" adlanacaq stansiyaların 2024-cü ildə istismara verilməsi planlaşdırılıb. Nəticədə bu enerji güclərinin istismarı sayəsində 2024-cü ildə Kəlbəcər rayonunda 75,5 MVt, illik enerji istehsal potensialı 230 milyon kilovat/saat olan 10 kiçik su elektrik stansiyasının tam işlək vəziyyətə gətiriləcəyini şərtləndirir.

Kəlbəcər rayonu termal sularla da kifayət qədər zəngindir. Bölgədə hidroenerji, termal suların, çay sularının mənbələrinə görə, ölkə üzrə resursların ən azı 30 faizinə malikdir. Eyni zamanda, Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 1000 MVt-dan çox texniki potensialının olduğu proqnozlaşdırılır. Hazırda həmin rayonların ərazisində 100 MVt gücündə tikintisi planlaşdırılan külək elektrik stansiyası layihəsi reallaşmaqdadır, digər stansiyaların tikintisi üzrə qiymətləndirmələr davam edir. Proqnozlara görə, Kəlbəcər rayonu ümumi gücü 180 MVt olan "yaşıl enerji"yə malikdir: Bu, ölkəmizdə bərpa olunan enerji mənbəyi kimi kiçik su elektrik stansiyalarının əsas ünvanlarından biri olan Kəlbəcərin strateji əhəmiyyətinin göstəricisi olmaqla rayona "yaşıl investisiyaların" nə qədər cəlbedici olmasını əsaslandırır.

Bütün bunlar rayonun potensial güc mənbəyi kimi "yaşıl enerji" zonasının əsas mərkəzlərindən birinə çevriləcəyini şərtləndirir. Hazırda Cənubi Koreyanın Ticarət və İnvestisiyaların Təşviqi Agentliyi işğaldan azad olunmuş ərazilərdə "Yaşıl iqtisadiyyat" quruculuğunda iştirak edir. İtaliya, Cənubi Koreya, Türkiyənin şirkətləri ilə də bərpa olunan enerji gücləri üzrə danışıqlar davam etdirilir. Türkiyə şirkətləri Kəlbəcər rayonunda bərpa olunan enerji layihələrinin iqtisadi əsaslandırma planını hazırlayıb və külək elektrik stansiyalarının inşası başlanacaq.

Beləliklə, azad edilmiş ərazilərin sırasında öz zəngin iqtisadi potensialı olan böyük bir coğrafi ərazi olan Kəlbəcər yaxın illərdə "yaşıl enerji" hubu formalaşdırmaqla 2026-2027-ci illərdə bərpa olunan enerjinin və hidrogenin Avropaya nəqlində mühüm yer tutacaq.

***E.CƏFƏRLİ***

# QDİƏT PM-nin komitə iclasında...

## Azərbaycan yeni enerji layihələrinin fəal təşəbbüskarıdır

Azərbaycan üzv olduğu beynəlxalq təşkilatlar çərçivəsində fəal siyasət həyata keçirir. Bu baxımdan, ölkəmiz Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisində də (QDİƏT PM) fəal təmsil olunur. Qeyd edək ki, 27-28 aprel tarixlərində Türkiyənin Zonquldaq şəhərində QDİƏT PM-nin İqtisadi siyasət və inkişaf komitəsinin 62-ci iclası keçirilib. İclasda "QDİƏT-ə üzv dövlətlər arasında enerji resurslarının ticarəti sahəsində əməkdaşlıq" mövzusunda məruzə müzakirəyə çıxarılıb.

Tədbirdə Azərbaycanı Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu təmsil edib. Elşad Mirbəşiroğlunun "Yeni Azərbaycan"a verdiyi məlumata görə, komitənin iclasında təşkilata üzv ölkələrin nümayəndələri enerji sahəsində əməkdaşlıqla bağlı fikirlərini söyləyiblər.




### Elşad Mirbəşiroğlu: Azərbaycan yeni enerji layihələrinin fəal təşəbbüskarı kimi çıxış edir

İclasda çıxış edən E.Mirbəşiroğlu Azərbaycanın qlobal xarakterli bir sıra enerji layihələrinin təşəbbüskarı və iştirakçısı olduğunu bildirib. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Onun sözlərinə görə, müzakirə edilən məruzədə də Azərbaycanın enerji siyasətinin önəmi vurğulanır, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum enerji kəmərlərinin vacibliyi qeyd edilir. Bu gün isə Azərbaycan yeni enerji layihələrinin həyata keçirilməsinin fəal təşəbbüskarı rolunda çıxış etməkdədir. Bu konkekstdə millət vəkili xüsusilə, alternativ enerji sahəsində görülən işlərdən bəhs edib. O, diqqətə çatdırıb ki, Azərbaycan bərpaolunan enerji mənbələrinin yaradılması istiqamətində mühüm addımlar atır. Yaşıl enerji ixracı sahəsində də ardıcıl işlər görülür. COP29-un ölkəmizdə keçirilməsi bu baxımdan böyük önəm kəsb edir. İclasda Azərbaycanın region ölkələrinin iştirakı ilə, xüsusilə Türkiyə və Gürcüstanla əməkdaşlıq şəraitində alternativ enerji sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Bu da ölkəmizlə enerji sahəsində həm əməkdaşlıq imkanlarını, həm də tərəfdaşların sayını genişləndirir. Bütövlükdə, E.Mirbəşiroğlu hesab edir ki, komitənin 62-ci iclas çərçivəsində çox səmərəli müzakirələr aparılıb və Azərbaycanın enerji sahəsində verdiyi qlobal töhfələrin əhəmiyyəti vurğulanıb.

İclas çərçivəsində, həmçinin nümayəndə heyətləri üçün ekskursiyalar da təşkil olunub. Zonquldaqda yerləşən Qara dəniz bölgəsinin ən böyük enerji-qaz terminalı ilə tanışlıq və dağ-mədən sahəsində görülən işlərə baxış keçirilib.

### Fatih Dönmez: Cənubi Qafqazda uzunmüddətli sülh və sabitlik regional təhlükəsizliyin vacib prioritetləridir




Qeyd edək ki, komitənin iclasında Cənubi Qafqaz regionunda sülh və əməkdaşlıq məsələsi haqqında da fikir və rəylər səsləndirilib. Türkiyənin QDİƏT PM-də nümayəndə heyətinin rəhbəri Fatih Dönmez bildirib ki, Cənubi Qafqazda uzunmüddətli sülh və sabitlik regional təhlükəsizliyin vacib prioritetləridir. İkinci Qarabağ müharibəsinin nəticəsi bu məqsədə çatmaq üçün münasib imkanlar yaradıb. Onun sözlərinə görə, Azərbaycan və Ermənistan arasında sülh sazişinin olmaması Cənubi Qafqazda sülh yolunda əsas maneədir. "Türkiyə sülh sazişi layihəsi üzrə fikir ayrılıqlarının (Bakı ilə İrəvan arasında - red.) aradan qaldırılmasına töhfə verməyə çalışır", - deyə Türkiyə nümayəndə heyətinin rəhbəri bildirib.

Eyni zamanda, o, ABŞ, Avropa İttifaqı (Aİ) və bir sıra Qərb ölkələrinin Cənubi Qafqazdakı proseslərə münasibətini balanslaşdırılmamış və birtərəfli adlandırıb. "Avropa İttifaqı ölkələri, Amerika Birləşmiş Ştatları və bəzi digər Qərb dövlətləri Azərbaycan və Ermənistan arasındakı fikir ayrılıqları məsələsində obyektivlikdən uzaqdırlar. Tərəflərdən birinin mövqeyini dəstəkləməklə, digər dövlətin narahatlığına məhəl qoymurlar və bu, şübhəsiz ki, Türkiyənin də narazılığına səbəb olur. Bu münasibət Cənubi Qafqazda problemlərin həllinin açarına çevrilməli olan qərəzsizlik və bütün tərəflərin mövqeyinin nəzərə alınması prinsiplərinə ziddir", - deyən Dönmez qeyd edib ki, Qərb ölkələrinin yanaşmaları regionda sülh proseslərini ləngidə bilər. O bildirib ki, Ankara bundan sonra da bütün regionda, o cümlədən Yaxın Şərqdə və Ukraynada ziddiyyətlərin, münaqişələrin həllinə töhfə verməyə çalışacaq.

Xatırladaq ki, QDİƏT çərçivəsində ölkəmiz bir sıra tədbirlərə də ev sahibliyi edib. Məsələn, aprelin 22-də Bakıda turizm təhsili üzrə əməkdaşlıq, perspektiv və problemlərin müzakirəsi məqsədilə Dövlət Turizm Agentliyi və QDİƏT-in birgə təşəbbüsü ilə təşkilata üzv dövlətlərin turizm üzrə təhsil müəssisələrinin 1-ci görüşü keçirilib. Görüşdə Azərbaycan, Türkiyə, Rusiya, Albaniya, Bolqarıstan, Gürcüstan, Yunanıstan, Moldova, Rumıniya, Serbiya və Ukrayna daxil olmaqla təşkilatın 11 üzv ölkəsindən rəsmi dövlət nümayəndələri və turizm təhsili müəssisələrinin təmsilçiləri, eləcə də BMT-nin Ümumdünya Turizm Təşkilatının nümayəndələri iştirak edib.

Görüş çərçivəsində "Hökumət, akademiya və sənayenin əlaqələndirilməsi: Turizm təhsilində ən yaxşı təcrübələr", "Kurikulum dizaynı: Sabahın ehtiyacları üçün turizm təhsilinin təkmilləşdirilməsi" mövzularında panel diskussiyalar, həmçinin "Turizm təhsilində keyfiyyət təminatı və akkreditasiya" mövzusunda dəyirmi masa keçirilib. Müzakirələr zamanı əsas əməkdaşlıq sahələrinin və tərəfdaşlıq imkanlarının müəyyən edilməsi, əməkdaşlığın təşviqində problemlər və potensial həll yollarının müzakirəsi, məzunların turizm sektorunun tələblərinə hazır olmalarını təmin etmək yolları, sənayedəki trendlərin təhlili və onların təlim proqramlarına daxil edilməsi kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb.Tədbirin yekununda "Bakı Bəyannaməsi" qəbul edilib.

**N.BAYRAMLI**

---

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə hazırlanmışdır**

# Heç bir layihə təxirə salınmır!

## Regionlarımızın inkişafına balanslı yanaşma...

Ölkəmizin inkişafını regional komponentsiz təsəvvür etmək qeyri-mümkündür. Çünki regional inkişaf ölkənin sosial-iqtisadi tərəqqisinin təmin edilməsi, bütün vətəndaşlarının həyat keyfiyyətinin yaxşılaşdırılması və qlobal səviyyədə rəqabət qabiliyyətinin artırılması üçün əsas şərtlərdən biridir. Regionların inkişafı həm də ona görə vacibdir ki, onların resurs, sənaye və kadr potensialı bütün ölkənin sosial-iqtisadi yüksəlişi üçün böyük imkanlar yaradır. Məhz bu amilləri diqqət mərkəzində saxlayan ölkə başçısı fəaliyyətində regionların dinamik inkişafına balanslı yanaşma nümayiş etdirir. Bir sözlə, ərazi bütövlüyümüzün bərpasından sonra Prezidentin regionlara səfərləri bu prosesə bir növ yeni impuls verir.

Tarixi qələbə qazandıqdan sonra dövlətimiz işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri aparmasına baxmayaraq, digər regionlarımız da diqqət mərkəzində saxlanılır. Böyük infrastruktur layihələri həyata keçirilir, yollar, sosial obyektlər tikilir. Heç bir layihə təxirə salınmır.

**ÜDM-da 22 dəfə artım...**

İqtisadçı-ekspert Fuad İbrahimov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, sosial-iqtisadi inkişaf konsepsiyası olmadan regionların iqtisadi inkişafı məsələlərini tənzimləmək mümkünsüzdür. O, qeyd edib ki, məhz bu reallıqdan çıxış edərək Prezident İlham Əliyev 2003-cü ildən başlayaraq Azərbaycanın yeni iqtisadi siyasət strategiyasını həyata keçirməyə başladı: "İndiyədək dövlət proqramları konsepsiyasında həyata keçirilən siyasətin əsas istiqaməti regionların sosial-iqtisadi inkişafına şərait yaradılması və təşviqinin başlıca istiqamət kimi müəyyənləşdirilməsidir. Bu siyasət tezliklə öz bəhrəsini verdi. Regionlarda quruculuq-abadlıq işləri geniş vüsət aldı, yeni istehsal və xidmət müəssisələri, sosial infrastruktur obyektləri açıldı, əhalinin məşğulluq səviyyəsi yüksəldi. Ötən illərdə bölgələrdə kənd təsərrüfatı sahələri inkişafında yeni mərhələyə qədəm qoydu. Məhz ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən bu proqramlar nəticəsində ötən 20 ildə mühüm iqtisadi nailiyyətlər qazanıldı- ölkə iqtisadiyyatı 3,4 dəfə, Ümumi Daxili Məhsul (ÜDM) nominal ifadədə 22 dəfə artdı".

**Bütün regionlarımızın hərtərəfli tərəqqisi prioritetdir**

Ekspertin sözlərinə görə, rəqabətqabiliyyətli məhsul istehsalında mühüm rol oynayan aqroparkların və iri kənd təsərrüfatı müəssisələrinin inkişafına, emal sənayesinin az xərclə yüksək keyfiyyətli xammal ilə davamlı təminatına, ərzaq bolluğunun yaradılmasına diqqət yetirilir: "Hökumətin qayğısı sayəsində süd emalı zavodlarının fəaliyyəti genişləndi, yeni istehsal sahələri yaradıldı, əhali keyfiyyətli məhsullarla təmin edildi. Regionlarda və ölkə daxilində yeni iş yerlərinin yaradılması sayəsində insanların məşğulluğu, xüsusilə biznes və sahibkarlıq mühitinin formalaşması və inkişafı, eləcə də bu istiqamətdə həyata keçirilən digər tədbirlər bütövlükdə Azərbaycan iqtisadiyyatının fasiləsiz, dinamik və nəhayət, dayanıqlı böyüməsini təsdiqləyir.



Əlbəttə, Prezident respublikamızın bütün regionlarının hərtərəfli tərəqqisini xüsusi diqqət mərkəzində saxlayır və bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirir. Ölkə başçısı qarşıya qoyduğu vəzifələrin icrasına şəxsən nəzarət edir, regionların inkişaf konsepsiyasının həyata keçirilməsinin vəziyyəti haqqında hökumətin rüblük, yarımillik və illik xüsusi iclaslarını keçirir. Bu, bir daha təsdiq edir ki, regionların inkişafı dövlət siyasətinin prioritet istiqamətidir".

**Bölgələrdə aqrar sahənin inkişafı davam edir...**

İqtisadçı bildirib ki, dövlət başçısı hər dəfə bölgələrə səfər edərkən iqtisadiyyatın müxtəlif sahələrinin dinamik və məhsuldar işləməsi üçün nəzərdə tutulmuş yeni müəssisələr açır, onların fəaliyyətini yoxlayır, rayonların sosial-iqtisadi vəziyyəti ilə yerindəcə tanış olur, müvafiq tapşırıqlar verir: "Aprelin 9-da Prezident İlham Əliyev bölgələrə növbəti dəfə səfər etdi. Gəncə şəhərinə, Hacıqabul və Qəbələ rayonlarına səfərləri zamanı dövlət başçısı yeni avtomobil yolunun, xəstəxananın, məktəblərin, istehsal və xidmət obyektlərinin açılışında iştirak etdi. Hacıqabul rayonunda vətəndaşların rahat gediş-gəlişini təmin etmək məqsədilə əsaslı şəkildə yenidən qurulan yol rayonun 8 yaşayış məntəqəsini birləşdirir. Uzunluğu 39 kilometr olan iki hərəkət zolaqlı avtomobil yolu 4-cü texniki dərəcəyə uyğun inşa edilib. Bundan başqa, Prezident Hacıqabul rayonunda "Agro Dairy" MMC-yə məxsus 4200 hektar torpaq sahəsinə Kür çayından nasos stansiyası vasitəsilə suvarma suyunun çatdırılması üzrə suvarma qurğuları kompleksi ilə tanış oldu. Su həyat, inkişaf deməkdir, belə suvarma kompleksinin istifadəyə verilməsi, əlbəttə, Hacıqabul və ətraf rayonların aqrar sahələrinin inkişafına çox müsbət təsir göstərəcək".

**Y.BAYRAMOVA**

---

# İrəvanın xilası üçün fürsətlər...

Prezident İlham Əliyevin ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda diqqət çəkdiyi çox mühüm məqamlardan biri də Ermənistanın nəqliyyat bağlantısı və qaz asılılığının aradan qaldırılmasında Azərbaycanın sahib olduğu mövcud infrastrukturlara qoşulmaqla həlli məsələsi idi. Cənab Prezident İrəvanın bölgəyə və dünyaya açılımında ən optimal və sərfəli marşrutlar kimi Azərbaycandan keçən qovşaqlara qoşulmasını göstərdi və Ermənistana faktiki olaraq şans və fürsətləri qaçırmamağı tövsiyə etdi.

**Ermənistan üçün bu fürsətlər nədir?**

İlk növbədə, nəqliyyat blokadasından çıxmaq və regionun nəhəng marşrutlarına qoşulmaq. Dövlət başçısının da vurğuladığı kimi Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına Ermənistan ərazisi vasitəsilə quru yolu beynəlxalq nəzarət və təhlükəsizlik mexanizmi ilə təmin edilməlidir. Bu, həm də Ermənistana tranzit ölkə olmaq imkanı yaradır. Bu ölkə heç vaxt tranzit və ya regioan körpü qovşağı olmayıb, indiki şəraitdə də bölgədə sülh qovşağının yaranması Azərbaycan olmadan real deyil. İrəvanı bəzi regional qüvvələr, xarici institutlar inandırmağa çalışır ki, Ermənistan İranla birgə Gorus-Qafan magistralına alternativ yol çəkərək İrəvan-Yerasx-Gorus-Meqri-İran sərhədi və İrəvan-Sevan-İcevan-Azərbaycan sərhədi, eləcə də Sevan-Martuni-Getap avtomobil yollarını modernləşdirməklə Gürcüstan üzərindən Qara dənizə çıxış qazansın. Olduqca mürəkkəb və dolaşıq olan bu yol infrastrukturlarının yaradılması siyasi və maliyyə dəstəyi baxımından neçə vaxtdır ortada qalıb, bu layihəni Şimal-Cənub nəqliyyat layihəsinin tərkib hissəsi kimi təqdim edənlər belə fərziyyələrini ciddi fiziki addımlarla sübut edə bilmir. Relyef, coğrafi trayektoriya, daşınma, məsafə, qlobal təchizatçılar üçün səmərəsiz hesab edilən məqamlar və s. amillər layihənin açılıb-örtülən qovluqdan kənara çıxmadığını göstərir.

Məsələ ondadır ki, bu yolu Ermənistanın inşa etməyə maliyyə gücü də yoxdur, heç İran də "əlini cibinə atmaqda" meyilli deyil, beynəlxalq kredit koalisiyası isə pulunu əbəs yerə havaya sovurmaq istəmir.

Bu yol, əslində həm də Şimal-Cənub nəqliyyat marşrutunun daha bir genişlənməsi və Şərq-Qərb nəqliyyat dəhlizinin bir hissəsi deməkdir. Ona görə də, Ermənistan bu tarixi fürsəti qaçırmamalıdır.




Ona görə də, Ermənistanın "dağa-daşa düşməkdənsə", ortada ən real olan və Yeni İpək Yolunun ən perspektivli xətti olan Zəngəzura qoşulması sərfəli və realdır.

Ermənistan üçün ikinci mühüm şans dayanıqlı və uzunömürlü yanacaq təminatını qurmaqdır. Regionda geosiyasi mürəkkəb vəziyyətin dərinləşməsi, digər amillər, eləcə də Ermənistanın hazırda qaz aldığı ölkələrin dəfələrlə yanacağın qiymətini artırmaq bəhanəsilə siyasi tələblər ortaya qoyması və qaz amilindən siyasi spekulyasiya kimi istifadə etməsi gələcəkdə digər problemlərin baş verməyəcəyinə təminat yaratmır. Azərbaycanın yanacaq amilindən heç bir ölkəyə qarşı siyasi məqsədlər üçün istifadə etmədiyi ortadır, Azərbaycan qaz ixrac etdiyi ölkələrə yalnız iqtisadi partnyorluq yanaşması sərgiləyir. Hətta qlobal bazar qiymətlərindən daha sərfəli müqavilələr təklif edir. Bunu Gürcüstanın timsalında görə bilərik, Gürcüstanın təbii qaz təchizatını və enerji təhlükəsizliyini 100 faiz təmin edən ölkəmiz orta bazar qiyməti ilə yanacaq satır. Belə imkan Ermənistan üçün də tükənməyib, ona görə də, Ermənistanın gələcəkdə uzunömürlü və etibarlı qaz təminatı sistemi qurmasında Azərbaycanın mövcud qaz kəmərləri infrastrukturu güclü təminatçısı və zəmanətvericisi ola bilər. Hazırda Naxçıvana təbii qazı təchiz etmək üçün Azərbaycan və İran yeni kəmər infrastrukturu yaradır, eləcə də digər boru kəməri Türkiyə ilə birgə qurulur. Bu şəbəkələrin Ermənistanı əhatə etməsi də mümkündür, Naxçıvana gedən həmin kəmərlərin Ermənistan ərazisinə çıxışları mümkündür. Belə halda kəmərin bu ölkədən keçməsi onun həm qaz təminatını həll etmiş olur, həm də bölgədə tranzit ölkə statusu qazandırır.

İrəvana açılan növbəti şans qapısı "yaşıl enerji" koridoruna qoşulmaqdır. Bu dəhliz də çoxsistemli Zəngəzur landşaftının bir hissəsidir. Belə ki, həmin dəhliz boyunca nəzərdə tutulan elektrik kabelləri keçəcək ki, bu xətlərdən birinin Ermənistandan uzanması mümkündür. İrəvan bu kabelilə həm enerji ala, həm də ixrac imkanlarına malik ola bilər. Sözsüz ki, bütün bunların bir yolu var, Azərbaycanla münasibətləri səliqə-sahmana salmaq və sülh sazişi imzalamaq. Bu, Ermənistan üçün başlanğıc nöqtəsi ola bilər.

**E.CƏFƏRLİ**

# Avropanın İslamofobiya ənənəsi

## İsveçdə Quran yenidən yandırılıb

İsveçin paytaxtı Stokholmda bir qadının Quran kitabını yandırması ilə bağlı yeni xəbərlər gəlib. Bu barədə Türkiyənin "A Haber" telekanalı X sosial şəbəkəsində məlumat yayıb. Görüntülərdən Jade Sandberg adlı qadının Quran kitabını yandırdığı məlum olur. Qadın yanan kitabın üzərində iki taxtadan hazırlanmış xaç tutaraq müqəddəs kitabımızı yandırıb.

Videomaterialdan da göründüyü kimi, Stokolmda baş verən hadisə yeni olsa da, ssenari eynidir - ikrah doğuran hadisə yenə də polis nəzarəti altında baş verib və hakimiyyət orqanları onun qarşısını almaq üçün hüquqi müstəvidə hansısa bir addım atmayıblar.

### Quranın humanizm çağırışlarına rəğmən, Avropada artan İslamofobiya

İslam dininin əxlaq qaydaları, kodeksi "Quran"da əks olunub. Bu kitab başdan ayağa insanları saflığa, humanizmə, birgəyaşayışa çağıran, nifrətə, qarşıdurmaya, nifaqa "yox" deyən ibrətamiz kəlamlardan ibarətdir. İslam dininin məqsədi kamil insan yetişdirmək, hüzur və sülh şəraitində yaşayan cəmiyyət meydana gətirməkdir. Bunun üçün müqəddəs dinimiz sevgini, mərhəməti, ədaləti, qardaşlığı, həmrəyliyi, yardımlaşmağı, ehtiyacı olana əl tutmağı təbliğ edir. Belə bir humanist dinin pis əməllərlə, terrorla nə əlaqəsi ola bilər?

Ümumiyyətlə, İslam fəlsəfəsində qisas zəminində zorakılıq yolu ilə insanlara işgəncə verməyə və ya onların yaşamaq hüququnu əlindən almağa qadağa qoyulub. Məhəmməd Peyğəmbər buyurur ki: "Mərhəmət edənə Allah da mərhəmət edər. Siz yer üzündəkilərə, bütün canlılara mərhəmət edin ki, göy üzündəkilər də (Allah və mələklər) sizə mərhəmət etsin" ("Səhihi-Tirmizi"). Digər hədisində isə "Quran "Müsəlman əlindən və dilindən kimsənin zərər görmədiyi, insanların hər mövzuda ondan əmin olduqları kimsədir" ("Səhihi-Buxari") - buyuraraq, şiddət və terrorun kökünü kəsəcək prinsipləri ortaya qoyur. Əsl İslam saxtakarlıqdan uzaqdır. İslamın mənəvi daşıyıcıları ona sədaqətlə xidmət göstərirlər.

Qeyd olunan fundamental dəyərlərin fonunda İslamın terrorla eyniləşdirilməsi və ona qarşı hansısa bir formada hücumlar təşkil edilməsi ən azından vicdansızlıqdır. İslama çamur atan cəmiyyətlər əslində müəyyən siyasi dairələrin və qüvvələrin girovluğunda qalıblar. Belə cəmiyyətlərdə insanların beyinləri zərərli təbliğatlarla "yuyulur" və onlara İslam etiqadına sığınan insanlara nifrət aşılanır. Bunun günahı isə İslam mədəniyyətində deyil.

İslamın və onun müqəddəs kitabı olan Quranın humanizm, bərabərlik çağırışlarına rəğmən Avropada utancverici İslamofobiya ənənəsi formalaşıb. XXI əsrdə İslamofobiya, ksenofobiya və irqçiliyə yer olmamalıdır. Terrorizm və ekstremizmi hər hansı bir din, millət, sivilizasiya və ya etnik qrupla əlaqələndirmək yanlış yanaşmadır. Dindən siyasi məqsədlər üçün istifadə yalnız cəmiyyətlər daxilində nifaq və




qarşıdurma yaratmağa xidmət edir. Bu təzahürlər, eyni zamanda, insanlığı humanizm ideallarından və ümumbəşəri dəyərlərdən məhrum edir, nəticədə sivilizasiyalararası münaqişələrə gətirib çıxarır. Təəssüf doğuran haldır ki, bugünkü Avropada hətta dini dəyərlər belə manipulyasiya predmetinə çevrilib. Tam qətiyyətlə deyə bilərik ki, hazırda öz dəyərlərindən və ənənələrindən uzaqlaşan qoca qitədə bir sıra hallarda dini təəssübkeşliyə çağırışlar edilir, İslamofobiya həyat normasına çevrilir. Son illərdə Yaxın Şərqdə əsasən İslam dininə sitayiş edən insanların yaşadıqları coğrafiyalarda kədərli münaqişələr yaşanır, qanlı müharibələr səngimək bilmir. Bu münaqişələrin və müharibələrin ssenariləri isə bir qayda olaraq Qərb dairələrində hazırlanır. Sadə, günahsız insanlar aclıqdan, səfalətdən, dağıntılardan xilas olmaq naminə Avropaya üz tuturlar. Burada isə onların üzünə qapılar bağlanır. Son bir ildə dünyada baş vermiş bütün anti-İslam təzahürlərinin 80 faizi Avropa ölkələrinin payına düşür.

### "Qurani-Kərim"ə artan hücumlar

İslamofobiyanın ən yüksək səviyyəyə çatdığı və rəsmi ideologiya kimi tətbiq olunduğu bəzi Avropa ölkələrində müqəddəs kitabımız "Qurani-Kərim"in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi və sair təhqiramiz hərəkətlər söz azadlığı kimi qələmə verilir ki, bu da qəbuledilməzdir. Son illərdə müqəddəs kitabımız Avropanın ayrı-ayrı ölkələrində yandırılıb və bu cinayətlər dövlətlərin təmsilçilərinin - hüquq-mühafizə orqanlarının əməkdaşlarının gözü önündə törədilib. Müqəddəs kitabımıza əl uzadanları heç kim dayandırmağa cəhd göstərməyib, onlara cəza kəsilməyib.

Niderland, Danimarka kimi ölkələrlə yanaşı, Fransa və İsveç də Quranın yandırılması, İslam dininin təhqir predmetinə çevrilməsi hallarının tez-tez təkrarlandığı ölkələrdirlər. Deyə bilərik ki, adı çəkilən ölkələrdə "Qurani-Kərim"ə qarşı ikrah doğuran hücumlar permanent hal alıb.

Avropada "Qurani-Kərim"ə qarşı sistemli, iyrənc hücumlar davam edir. Fransanın "Charlie Hebdo" jurnalı bunu davamlı ənənəyə çevirib. Ötən il "Charlie Hebdo" jurnalı İslam dini mövzusunda qalmaqallı üz qabığını dərc edib. Tənqid hədəfi müqəddəs kitabımız "Qurani-Kərim" olub. Jurnalın bədnam üz qabığında aşağıdakı təsvir yer alıb: "Quran yandırmağı dayandırın, oxuyun, əyləncəlidir. Mən heç vaxt bu qədər gülməmişdim".

Danimarkalı ifrat sağçı siyasətçi Rasmus Paludan son illərdə Pasxa bayramı zamanı İsveçin Malmö, Norköpin, Yönköpinq şəhərləri və paytaxt Stokholmda "Qurani-Kərim"in yandırılması ilə bağlı təxribatlarını davam etdirib. O cümlədən Paludan Türkiyənin Stokholmdakı və Kopenhagendəki səfirliklərinin qarşısında "Qurani-Kərim"i yandırıb.

Yenə də İsveçdə İraq əsilli Salvan Momika ötən il Qurban bayramının ilk gününə təsadüf edən iyunun 28-də Stokholm məscidinin qarşısında polisin mühafizəsi altında müqəddəs kitabımızı yandırıb. Momika həmçinin Stokholmdakı İraq səfirliyi qarşısında, İsveç parlamentinin önündə polisin himayəsi altında "Qurani-Kərim"i və İraq bayrağını tapdalayıb.

Belə misalların sayı çoxdur. Lakin müqəddəs kitabımızın yandırılması heç bir halda heç kimə başucalığı gətirmir. Bu, bütövlükdə qoca qitə üçün üzqarası səhifəsidir. Çox doğru olaraq bu cür hallar Avropanın öz dəyərlərindən və ənənələrindən geri çəkildiyi, cəmiyyətlərin kəskin deqradasiyaya uğradıqları anlamında dəyərləndirilir.

### İslam dünyasında kəskin etirazlar

Avropa şəhərlərində "Qurani-Kərim"in yandırılması geniş İslam coğrafiyasında kəskin etirazlarla qarşılanır. Ötən il 40 ölkədə İnsanlığa Dəyər Verən Dərnəklər Federasiyasının (IDDEF) tələbələri və təlimatçıları İsveçin paytaxtı Stokholmda Türkiyə səfirliyi qarşısında "Qurani-Kərim"in yandırılmasına cavab olaraq Quranı xətm edib. İDDEF verdiyi açıqlamada ifrat sağçı Rasmus Paludanın Türkiyənin Stokholmdakı səfirliyi qarşısında müqəddəs kitabımızın yandırılması aksiyasına rəsmi qurumlar tərəfindən icazə verildiyi xatırladılıb və Quranın yandırılmasının açıq-aşkar nifrət və insanlıq cinayəti olduğu bildirilib.




İslam dəyərlərinə böyük hörmətlə yanaşan Azərbaycan həmrəylik göstərərək müqəddəs dinimizə iftiralar atılmasını, Avropa şəhərlərində Quranın yandırılmasını qətiyyətlə pisləyir. Bununla bağlı Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısında birmənalı mövqeyini dəfələrlə ortaya qoyub. Eyni zamanda, qardaş Türkiyə dinimizin və "Qurani-Kərim"in iftralardan və xain hücumlardan qorunması üçün ardıcıl fəaliyyətlər sərgiləyir. Ötən il Türkiyə İsveçin NATO üzvlüyünə gedən yolunu xeyli çətinləşdirdi və uzun müddət buna tələb olunan razılığını vermədi. Qardaş ölkənin İsveç qarşısında qoyduğu tələblərdən biri də İslam dininə əsassız hücumların dayandırılması ilkə bağlı idi. Sonradan tələblərinin yerinə yetirilməsi ilə bağlı İsveçin rəsmi dairələrindən təminatlar alan Türkiyə bu ölkənin NATO-ya yolunu açdı. Stokholmda bu günlərdə Quranın yenidən yandırılması ondan xəbər verir ki, İsveç hələ də pis ənənəsindən əl çəkməyib.

*Mübariz FEYİZLİ*

# Xalqına xor baxan...

## Redikküllər Azərbaycanın uğurlarına sevinmir

2020-ci ildən başlayaraq ərazi bütövlüyümüzün təmini istiqamətində həyata keçirilən proses mühüm uğurları ilə seçilib. 44 günlük Vətən müharibəsində qazanılan qələbə nəticəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımız azad edilib. Ardından isə 2023-cü ilin sentyabrında reallaşan lokal antiterror tədbirləri nəticəsində suverenliyimiz bərpa olunub. 2024-cü ildən isə bölgədə yeni siyasi reallıqlar yaranıb - Ermənistanın aprel ayında 4 kəndin Azərbaycana qaytarılması ilə bağlı razılaşmaya imza atması ölkəmizin böyük uğuru kimi xarakterizə olunur.

Təbii ki, bu yeni reallıqların müəllifi olan Azərbaycan dövlətinin apardığı siyasi kurs həm daxili, həm də xarici arenada ölkəmizin nüfuzunun artmasını şərtləndirib. Təsadüfi deyil ki, dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatları ölkəmizin Cənubi Qafqazda yaratdığı yeni situasiyanın inkişafa və təhlükəsizliyə xidmət göstərdiyini bəyan edirlər. Hətta Avropa kontingenti, bütövlükdə Qərb Azərbaycanı bölgənin aparıcı dövləti, siyasi-iqtisadi lideri kimi qəbul edir.

Təəssüfləndirici haldır ki, Azərbaycanın əldə etdiyi bu uğurlar ölkə daxilindəki redikül müxalifəti və onların xaricdəki antimilli uzantılarını narahat etməkdədir. Xüsusilə də, Azərbaycanın praqmatik xarici siyasət kursunu hədəfə almağa çalışan redikküllər və onların əlaltıları sosial şəbəkələrdə müxtəlif yalanlar səsləndirir, manipulyasiyalara əl atırlar. Məsələn, AXCP sədri Əli Kərimli, onun yerli və xaricdəki əlaltıları Azərbaycanın artan beynəlxalq nüfuzunu və regionda yaranan yeni reallıqları qəbul edə bilmir və qazanılan nailiyyətlərə kölgə salmaq üçün çirkin təbliğat aparırlar. Bu məsələdə xüsusilə fərqlənən isə yenə də Kərimlinin "Fransadakı canlı kassası" sayılan Qənimət Zahiddir. Azərbaycanın uğurlarını həzm etməyən bu şəxs fərqli yalan və qərəzlə şər-böhtan kampaniyası aparmağa çalışır.

Əslində Qənimət Zahidin apardığı antimilli "təbliğat" onun əsl simasını ortaya qoyur - belə ki, son günlərdə Qərbin ənənəvi təzyiq metodu kimi istifadə etdiyi "insan hüquqları" məsələsinə yenidən "dönüş etməsi" onların bütün bəhanələrinin əllərindən çıxmasının göstəricisi sayılır. Q.Zahidin də sözü qutarmış aşıq kimi erməni lobbisinin böhtanlarını təkrarlaması onun kimliyindən xəbər verir. Fransadakı erməni lobbisinin Əli Kərimliyə ötürdüyü pulların əsas "keçid məntəqəsi" sayılan Q.Zahidin bu "mövzuya" xitab etməsi, ardından isə Əli Kərimlinin sosial şəbəkədəki trolllarının da yeni məzmuna müraciət etməsi bütün həqiqətlərin üzərinə işıq salır.

Xarici pullarla gözünü "kor" edən bu azsaylı dəstə Azərbaycanın uğuruna sevinmir - əksinə, Azərbaycanın ən qatı düşməni kimi mövqe sərgiləyir. Ölkəmizin bütün platformalarda əldə etdiyi nailiyyətlər, qələbələr isə onların əsas "hədəfidir". Bu fakt bir daha redikül müxalifətin xislətini ortaya qoymaqdadır. Azərbaycanın apardığı uğurlu və çoxşaxəli xarici siyasət kursu beynəlxalq aləm tərəfindən dəstəkləndiyi halda, onların bu uğurları görməzdən gəlməsi onların təkcə dövlətə qarşı deyil, xalqa qarşı "müxalifətçiliyindən" xəbər verir...

*MƏNSUR*

# Ermənistanda hərbi çevriliş ola bilərmi?

Azərbaycanın Qazax rayonunun 4 kəndinin geri qaytarılması ilə bağlı əldə edilən razılıqdan sonra Ermənistandakı revanşist qüvvələr hakimiyyətə qarşı etirazlar təşkil edir. Revanşistlər bu razılaşmanı həzm edə bilmir və Paşinyan hakimiyyətini "qorxaqlıqda" və "satqınlıqda" ittiham edirlər. Etiraz aksiyaları tərəflər arasında razılaşmanın əldə edildiyini gündən başlayıb. Belə ki, aprelin 19-da gecə saatlarında Tavuşda bir qrup yerli sakin Bağanis-Kirants kəndləri ərazisində Ermənistan-Gürcüstan dövlətlərarası yolunu bağlayıb. Müxalifətin və revanşist qüvvələrin təhriki ilə yolu bağlayanlar Ermənistan və Azərbaycanın delimitasiya komissiyalarının görüşünün nəticələrinə və işğal altındakı 4 kəndin Azərbaycana qaytarılmasına etirazlarını bildiriblər. Ermənistandan Gürcüstana gedən dövlətlərarası yolun Kirants kəndi ərazisindəki hissəsi hələ də bağlıdır və burada sərhədin demarkasiyası işləri davam edir. Ümumilikdə, bölgədə vəziyyət hələ də sabit deyil.

Etiraz aksiyaları Ermənistanın digər ərazilərini də əhatə etməyə başlayıb. Etirazçılar İranla dövlətlərarası yolun Kərki kəndi hissəsindən keçən yolu da bağlayıblar. Əraziyə cəlb edilən polislə etirazçılar arasında qarşıdurma yaşanır. Polis güc tətbiq edərək yolu açsa da, problem hələ də qalır.

### Gümrü-Armavir yolu da revanşistlərin hədəfində

Bundan başqa, bir qrup müxalifət fəalı ağır texnika və avtomobillərin köməyi ilə Armavir şəhərindən Gümrüyə gedən magistral yolu da bağlayıb və dörd kəndin Bakıya qaytarılmasını nəzərdə tutan Azərbaycanla birtərəfli delimitasiya və demarkasiyaya son qoyulmasını tələb edib. "Biz Ermənistanın baş naziri Nikoldan Paşinyandan Ermənistan "ərazilərini" Azərbaycana təslim etməyi dayandırmağı tələb edirik, o, satqındır, vətənimizə xəyanət edib", - deyə aksiya iştirakçıları şüarlar səsləndiriblər. Daha sonra hadisə yerinə polis və deputatlar gəlib. Danışıqlardan sonra polis avtomobilləri və ağır texnikanı yoldan çıxarıb və hərəkət bərpa olunub.

Gümrü şəhərində Rusiyanın 102-ci hərbi bazasının yerləşdiyini nəzərə alsaq, Gümrü-Armavir yolunun bağlanmasının arxasında digər təxribatçı məqsədlərin dayanması istisna deyil. Bu ehtimalı bugünlərdə etiraz aksiyalarına erməni hərbçilərin qoşulması haqqında məlumatların yayılması daha da gücləndirir. Erməni mediasının yaydığı məlumata görə, Azərbaycanla sərhədində yerləşən Tavuş vilayətində keçirilən etiraz aksiyasına bir qrup müqaviləli hərbçi də qoşulub. Bu barədə görüntülər teleqram kanallarında da yayılıb.

### Hərbçilər sonradan üzr istəsələr də...

Ermənistan Müdafiə Nazirliyi isə "Tavuş vilayətinin Kirants şəhərində keçirilən siyasi aksiyaya" qoşulan hərbi geyimli şəxslərin kimliyini müəyyənləşdirdiyini bildirib. Nazirlik qeyd edib ki, ordunu siyasi proseslərə cəlb etmək cəhdinə adekvat hüquqi qiymət veriləcək. Lakin çox keçmədən sözügedən hərbçilər efirə çıxaraq, etdikləri hərəkətə görə hər kəsdən üzr istəyiblər. Hərbçilər videomüraciət edərək, baş verənlərdən təəssüfləndiklərini bildiriblər. Ermənistan İstintaq Komitəsinin yayımladığı videoda bildirilib ki, bir qrup hərbi qulluqçunun hərbi xidmətin bəzi vəzifələrini yerinə yetirməkdən açıq-aşkar imtina etməsi ilə bağlı cinayət işi açılıb. Həmin hərbçilərin müraciətində isə deyilir: "Biz Kirants kəndinə getdik, orada bizi bir sıra jurnalistlər və nümayişçilər qarşıladılar. Guya biz hərbçilər oraya gedərək nümayişçilərə qoşulmuşuq. Nəzərinizə çatdırırıq ki, bütün bunlar yalandır. Biz ora tələsik getdik, buna görə təəssüflənirik və bütün bunları siyasiləşdirməməyinizi xahiş edirik. Biz əsgərik və bizə tapşırılan tapşırıqları yerinə yetirməliyik". İcevan hərbi hissəsinin hərbçisi Feliks Baqumyan deyib: "Bizim bu etirazçılarla heç bir əlaqəmiz, siyasi baxışımız yoxdur, bizim orada olmağımız təsadüf olub, buna görə təəssüflənirik, bağışlanmanızı xahiş edirik. Xahiş edirik, bütün bunları siyasiləşdirməyin".




Hərbçilərin bu davranışı Ermənistanda hərbi çevriliş olması ehtimalını gündəmə gətirib. Bəzi ekspertlər bu hadisəni çevriliş üçün bir "eksperiment" kimi dəyərləndiriblər. Məsələ ilə bağlı qəzetimizə açıqlama verən hərbi ekspert Emin Həsənli bildirib ki, hazırda Ermənistanda hərbi çevriliş ehtimalı yoxdur. Onun sözlərinə görə, sərhədlərin delimitasiya və demarkasiyası prosesinə etiraz edən ermənilərin sayı elə də çox deyil. Onlar sadəcə kiçik qruplar halında yolları bağlamaqla aksiyalar keçirir. Ermənistanda müxalifətə bu yöndə əhali tərəfindən ciddi dəstək verilmir.

### Ekspert: Revanşistlərə əhali tərəfindən ciddi dəstək verilmir

Ekspert qeyd edib ki, kiçik etirazçı qruplar hakimiyyəti dəyişmək iqtidarında deyil: "Bu hadisələr 2018-ci il hadisələri ilə müqayisə olunmamalıdır. O zaman Sarkisyana qarşı etiraz aksiyalarına hərbçilər kütləvi şəkildə qoşulmuşdu. Hərbçilərin həmin aksiyalarda iştiraka Robert Köçəryanın sövq etdiyi bildirilirdi. Doğrudur, indi də Ermənistan ordusunda revanşistlərin müəyyən təsiri var. Lakin ötən dövrdə Paşinyan hakimiyyəti onların xeyli hissəsini ordudan təmizləyib. Sərhədlərin delimitasiya prosesinə qarşı etirazlara qoşulmuş bir qrup erməni hərbçinin sonradan üzr istəmələri və aksiya iştirakçısı olmadıqlarını söyləmələri də göstərir ki, hazırda Ermənistanda hərbi çevriliş ehtimalı yoxdur".

*NARDAR*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# 25 nəfərin adına olan gün!

## ADNA terrorundan 15 il ötür...

Bu gün tariximizin ən faciəvi günlərindən biridir. 2009-cu il aprelin 30-da Azərbaycan Dövlət Neft Akademiyası (ADNA) özünün qanlı tarixini yaşadı. Bu tarix ölən və yaralananların adı ilə yadda qaldı və onların adı ilə də anılacaq. 25 nəfərin adına olan bir gün bu gündür. Həmin qanlı gündən artıq 15 il ötür...

Tədris binasına silahlı hücum zamanı universitetin ikinci korpusuna daxil olan terrorçu Fərda Qədirovun birinci mərtəbədən altıncı mərtəbəyədək qarşısına çıxanlara "Makarov" tipli tapançadan atəş açması nəticəsində müəllim və tələbələr amansızcasına qətlə yetiriliblər. Terror aktı nəticəsində 12 nəfər həlak olub, 13 nəfər ağır yaralanıb. Hadisəni törədən şəxs binanın sonuncu mərtəbəsində olindəki silahla özünü vuraraq öldürüb.

Maraqlıdır ki, hadisə 2009-cu ildə Azərbaycan büdcəsinə yüz milyonlarla dollar həcmində neft gəlirləri daxil olan günlərdə törədilib. Neft Akademiyasının hədəf olaraq seçilməsi də bu baxımdan təsadüfi görünmür. Bir sıra qonşu və uzaq dövlətlərdə bu tərəqqinin qısqanclıq doğurduğu gün kimi aydın idi. Hər halda həmin ölkələrin mediasında ölkəmizə yönəlik mənfi yüklü materiallar çoxalmışdı. Ona görə də Azərbaycanın məhz ən həssas yerindən - uğurlarının əsas qaynağı olan neftin və gəncliyin üzərindən vurulması sui-qəsd nəzəriyyəsi tərəfdarları ilə yanaşı, ayıq, soyuq düşünməyi üstün tutan analitiklərin də nəzərini şimala yönəltmişdi.

Qeyd edək ki, faktla bağlı Cinayət Məcəlləsinin terrorçuluq, qəsdən adam öldürmə, qaçaqmalçılıq, qanunsuz olaraq odlu silah, döyüş sursatı əldə etmə, saxlama, daşıma, gəzdirmə və qanunsuz olaraq narkotik vasitələri əldəetmə, saxlama və daşıma maddələri ilə cinayət işi başlanıb. İstintaqın məlumatına görə, cinayətin təşkilatçısı Gürcüstan vətəndaşı, erməni əsilli Mardun Qumaşyan olub. O, müttəhimlərlə cinayət əlaqəsinə girərək, onları Bakıda azərbaycanlılara qarşı terror aktı törətməyə razı salıb.

İstintaq hesab edib ki, Qumaşyan terrorçuluğu maliyyələşdirərək bu cinayətin təşkili və həyata keçirilməsi üçün onlara ümumilikdə 50 min ABŞ dolları məbləğində pul verəcəyini vəd edib. O əvvəlcədən Fərda Qədirova 5 min ABŞ dolları məbləğində pul verərək, qalan məbləği cinayət törədildikdən sonra verəcəyini, eləcə də F.Qədirov tərəfindən hələ 2008-ci il noyabrın 8-də Tbilisidə odlu silah satışı mağazasından aldığı "Makarov" tipli tapança və 200 ədəddən artıq patronların qanunsuz olaraq Azərbaycana keçirilməsi barədə razılığa gəlib.

İbtidai istintaq Fərda Qədirovun ruhi xəstə olduğunu müəyyənləşdirib. O, cinayəti törətməzdən əvvəl mobil telefonu ilə video çəkib və bunu Azərbaycan cəmiyyətinə nifrət etdiyi üçün törətdiyini deyib. Qədirov Gürcüstana gəlməzdən əvvəl Rusiyada yaşayıb.

Baş verən bu terror hadisəsindən ölən və yaralananların yaxınları ilə yanaşı, bütün ölkə sarsıldı. Dəhşətli terrordan 15 il ötsə də, universitetin divarlarındakı nalələr, acılar hələ də qalmaqdadır...

*Yeganə BAYRAMOVA*



# Zəncilərin yaratdığı janr...

## Beynəlxalq Caz Günüdür

Haqqında danışacağımız musiqi janrının vətəni Yeni Orlean sayılır. Amerikada yaşayan zəncilərin ritmik musiqiləri ilə ağ dərililərin xalq musiqilərinin qarışığından yaranmış janrdır. Bu janrın dünya musiqi ictimaiyyəti tərəfindən qəbul edilməsi isə 19-cu əsrin sonu 20-ci əsrin əvvəllərinə təsadüf edir. Söhbət vaxtı ilə ABŞ-da istismar edilən hüquqsuz zənci əhalisi, nə vaxtsa öz vətənlərindən didərgin salınmış qara qulların əcdadları arasında yaranmış cazdan gedir.

**Yeni Orleandan dünyaya...**

Tarixi daha qədim olan cazın belə gec tanınmasının, sözsüz ki, səbəbləri var. Caz Amerikanın cənub ştatlarındakı afrikalı qulların musiqisi hesab edilir. Cazın Yeni Orleanda deyil, Amerikanın digər bir bölgəsində yaranması mümkün deyildi. Çünki sonradan musiqi tənqidçiləri dəfələrlə öz araşdırmalarında cazın Yeni Orleanın bütün xarakterində, mühitində əks olunduğunu bildirirlər. Onlar Yeni Orleanın ABŞ-ın heç bir şəhərinə bənzəmədiyini bildirir və cazın məhz bu şəhərdə yaranmasını təbii hesab edirlər. Bu şəhər öz səs-küyü, şənliyi, ən başlıcası, buradakı zəncilərə daha çox özünüifadəyə imkan verməsi ilə fərqlənirdi. Bu da həlledici bir faktdır ki, Avropadan Cənubi Amerikaya köçmüş ilk qaradərili kolonistlər nəslinin xatirəsinə ucaldılmış yeganə heykəl məhz Yeni Orleandadır.



**Cazın inkişafı mərhələləri...**

**Ragtime:** Bu mərhələyə əsasən keçmişdə zəncilərin mərasimlərdə söylədikləri mahnılar aid edilir. 1917-ci ilə qədər davam etmiş bu mərhələnin ən məşhur caz ustası Elli Roli Martondur. Təəssüf ki, bu dövrə aid heç bir caz nümunəsi qalmayıb.

**Blues:** Amerikalı zənci kölələrin işləyərkən söylədikləri xalq mahnıları olan bluz cazın meydana gəlməsində böyük rol oynayıb. Blues ifadə məzmunu baxımından zəncilərin daxili kədərini, çətinliklərini ifadə edir.

**Hot** caz: Artıq bu dövrdə caz daha da inkişaf edib, səhnəyə yol tapa bilib. Hot caz dövründə bütün caz ustaları öz üslublarını formalaşdırıb.

**Swing:** Hot cazın davamı və daha təkmil formasıdır. Bu dövrdə caz bütün sərhədlərini müəyyənləşdirib və tam bir musiqi janrı kimi özünü təsdiq edib. Bu dövrün əsas caz ustaları Louis Armstrong, Colemas Havvkins, Lester Young, Roy Eldridge, Glenn Miller kimi sənətkarlar olub.

**Müxtəlif mədəniyyətlərin sintezi...**

Qaradərili qulların mahnıları və rəqslərini sivilizasiyalı amerikalılar vəhşi təbiətin məhsulu kimi dəyərləndirirdilər. Avropa musiqisinin ənənəsinə alışmış qulaqlar bu musiqidə ancaq xaos və ahəngsizlik eşidirdi. Təxminən XIX əsrə qədər bu musiqini tədqiq etmək heç kimin ağlına gəlmirdi. Cazın primitiv olduğu qədər də intellektual, insanı göz yaşları həddinə gətirən musiqi janrı, müxtəlif mədəniyyətlərin sintezinin məhsulu olduğunu ağ dərili amerikalılar, eləcə də avropalılar sonralar başa düşdülər.

Caz onu qəbul etmək istəyən və istəməyən bütün xalqların musiqisinə daxil olmuş, hopmuş bir musiqi janrıdır. Hətta SSRİ kimi totalitar rejimə qulluq edən bir ölkə belə bu musiqinin sərhədləri aşmaq qüdrəti qarşısında aciz olub. Caz musiqiyə melodiya baxımından böyük yeniliklər gətirdi.

Yeri gəlmişkən, hər il aprelin 30-u dünyada Beynəlxalq Caz Günü kimi qeyd edilir. 2012-ci ildə UNESCO tərəfindən elan edilən bu gün dünyanın cazsevər ölkələrində keçirilən konsert proqramları ilə yadda qalır. Əlamətdar gün hər il dünyanın 190-dək ölkəsində qeyd edilir.

*Yeganə BAYRAMOVA*

# Böhran İdarəetmə Qrupu layihəsinin ilk simulyasiya testi uğurla başa çatdı




*Azercell-in BİQ layihəsinin Biznesin Davamlılığı testi Ələt Azad İqtisadi Zonasında həyata keçirildi*

Ölkənin lider mobil operatoru Azercell-in BİQ - Böhran İdarəetmə Qrupu layihəsinin ilk simulyasiyası Ələt Azad İqtisadi Zonasında real vaxt rejimində Biznesin Davamlılığı testi həyata keçirildi. İlk dəfə baş tutan testdə Azercell ilə yanaşı layihənin digər tərəfdaşları - Azərkosmos, Aztelekom və Baktelekom şirkətlərinin əməkdaşları da iştirak etdilər. Sözügedən ərazidə rabitənin tamamilə kəsilməsi simulyasiya edilərək böhran vəziyyəti yaradıldı. Böhran təlimi zamanı regionlardan olan texniki qrupların hadisə yerinə çatması və rabitənin bərpa edilməsi istiqamətində işlərə başlanıldı. İlk olaraq qruplar ərazidə 2 mobil Baza Stansiyası quraşdıraraq mobildə sayda abunəçiyə milli peyk imkanlarından istifadə edərək 2G xidməti təqdim etdilər. Növbəti mərhələdə yüksək sürətli internet, 3G və 4G şəbəkəsi bərpa edildi və ərazi 100 meqabit Wi-Fi xidməti ilə təmin olundu. Qeyd edək ki, öncəki testlərlə müqayisədə bu simulyasiya testində bərpa vaxtı 2 qat azaldıldı.

Bütün bərpa işləri isə regionlardan olan və Azercell tərəfindən xüsusi texniki təlimlər görmüş qruplar tərəfindən icra olundu.

Qeyd edək ki, bu layihənin keçirilməsinə təkan verən faktorlardan biri də Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü zamanı Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüs olub. Bu zirvə görüşü zamanı Ankara Bəyannaməsi və mülki müdafiə mexanizminin qurulmasına dair Protokol imzalanıb.

Azercell-in Biznesin Dayanıqlığı şöbəsinin və cari layihənin rəhbəri Anar Mirzəyev bildirib ki, layihənin məqsədlərindən biri də region və Türk dövlətlərinin ərazisində baş verə biləcək böhran və təbii fəlakətlər zamanı birgə addımlar atmaq üçün öncədən təşkilatlanmaqdır: "Ankara bəyannaməsinə əsasən, baş verə biləcək mümkün fəlakətlər və fövqəladə hallar zamanı ehtiyacların səmərəli, əlaqələndirilmiş və vaxtında həll edilməsi üçün Türk Dövlətləri Təşkilatının milli fəlakətlərin idarə edilməsi qurumları arasında əməkdaşlığı gücləndirmək və Mülki Müdafiə Mexanizminin yaradılması haqqında razılığa gəlinib. Bu bənd BİQ layihəsinin yaradılması niyyəti ilə üst-üstə düşür."

Test haqqında video-material: https://www.youtube.com/watch?v=7hmLTAfI5Hk

## İdman

# "Paris-2024"ə lisenziya qazanan Azərbaycan avarçəkəni: Bu, əziyyətin, çox çalışmağın nəticəsidir




"Olimpiadaya lisenziya qazandığım üçün xoşbəxtəm. Nəticədən razıyam".

AZƏRTAC xəbər verir ki, bu sözləri akademik avarçəkmə üzrə Azərbaycan millisinin üzvü Diana Dımçenko Macarıstanın Seqed şəhərində təşkil edilən Avropa Olimpiya Təsnifat reqatasında 2-ci yeri tutaraq "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya qazanmasıbarədə danışarkən deyib.

35 yaşlı idmançı bildirib ki, bu uğur əziyyətin, çox çalışmağın nəticəsidir: "Yarış çox çətin keçdi. Çünki hava küləkli idi. Bu, isə avarçəkənlərə mane olurdu".

Qeyd edək ki, bu, Azərbaycanın "Paris-2024"ə qazandığı 18-ci lisenziyası olub.

# Azərbaycan taekvondoçuları Prezident Kubokunda 12 medal qazanıblar

Estoniyanın paytaxtı Tallində taekvondo üzrə Prezident Kubokuna yekun vurulub.

AZƏRTAC xəbər verir ki, yarışın son günündə gənclərdən ibarət Azərbaycan millisi 5 medal qazanıb.

Komandanın heyətində Gülü Zamanlı (42 kiloqram) bütün rəqiblərinə qalib gələrək birinci yeri tutub. Yalnız finalda məğlub olan Məhəmməd Həsənli (48 kiloqram) gümüş medala yiyələnib. Seyidxanım Məmmədova (49 kiloqram), Mehdi Budaqlı (45 kiloqram) və Ziya Həsənli (55 kiloqram) üçüncü yeri tutublar.



Bununla da Azərbaycan taekvondoçuları Prezident Kubokunu 12 medalla bitiriblər. Daha öncə kiçikyaşlı idmançıların yarışında 1 gümüş mükafat əldə edən komanda yeniyetmələrin mübarizəsində isə 1 qızıl, 2 gümüş və 3 bürünc medala yiyələnib.

# Atletlərimiz lisenziya turnirində daha 6 medal əldə ediblər



Azərbaycan atletləri Türkiyənin Antalya şəhərində keçirilən "Olimpik deneme" turnirində növbəti medalları qazanıblar.

Azərbaycan Atletika Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya xarakterli yarışın ikinci günündə 200 metr məsafəyə qaçışda Əlhəm Nağıyev bütün rəqiblərini geridə qoyaraq finişə birinci gəlib.

Qadınların mübarizəsində Lamiyə Vəliyeva 200 metr məsafəyə qaçışda hamıdan sürətli olaraq yarışın qalibi adını qazanıb. Fəridə Rzayeva isə 3-cü yeri tutub.

Üç təkanla tullanma yarışının yekununda Rüstəm Məmmədov 2-ci pillədə qərarlaşıb. Toğrul Şahtaxtinski isə U 16 kateqoriyasında disk atma və nüvə itələmədə ən yüksək nəticə göstərərək hər iki növdə qızıl medallara sahib çıxıb.

Qeyd edək ki, yarışın ilk günündə uzunluğa tullanmada Nazim Babayev qızıl, Orxan Aslanov bürünc medal qazanıb. Qadınlar arasında 100 metr məsafəyə qaçışda L. Vəliyeva fəxri kürsünün ən yüksək pilləsinə qalxıb, kişilərin eyni məsafəyə yarışında isə Ə. Nağıyev 2-ci yerə sahib çıxıb.

# Bakıdakı Avropa Kubokunda iştirak edəcək Azərbaycan gimnastları bəlli olub




Bakıda ilk dəfə keçiriləcək bədii gimnastika üzrə Avropa Kubokunda Azərbaycanı təmsil edəcək idmançılar müəyyənləşib.

AZƏRTAC Azərbaycan Gimnastika Federasiyasının rəsmi saytına istinadən xəbər verir ki, fərdi proqramda İlona Zeynalova qüvvəsini sınayacaq.

Qrup hərəkətləri proqramında isə Zeynəb Hümmətova, Güllü Ağalarzadə, Darya Sorokina, Yelizaveta Luzan, Ləman Əlimuradova və Kamilla Əliyevadan ibarət komanda medallar uğrunda mübarizə aparacaq.

Turnirdə 34 ölkədən idmançıların iştirakı gözlənilir. Milli Gimnastika Arenasında təşkil olunacaq yarış mayın 3-5-də baş tutacaq.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5607
Sifariş: 979
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova